

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP 31 İL - Zəfərlər ölkəsinin alternativi olmayan partiyası



4

SƏS
№ 211 (6894)
18 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Cənubi Qafqazın ən güclü ordusu!



2

Prezident İlham Əliyev: "XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir"

# Müharibələr və münaqişələr törədən YALANÇI "SÜLH GÖYƏRÇİNLƏRİ"




12

## Tarixin danışan həqiqətləri: Qarakənd faciəsi




3

## Laçın köç karvanlarını qarşılayır



6

## Uşaqlar bizim deyil...



7

## Evlər nə vaxt sənədləşdirilir? – Çıxarış yolunu gözləyən mənzillər...



## Əli Kərimlinin trol dəstəsi təxribatlarını genişləndirir



13

# Cənubi Qafqazın ən güclü ordusu!

## Prezident İlham Əliyev: "XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir"



44 günlük Vətən müharibəsi Zəfər tariximizi yazaraq, qısa zaman kəsiyində Azərbaycanı böyük tarixi qələbəyə apardı. Bu qələbəni qazanmağımız 44 gün ərzində olsa da, Azərbaycanda aparılan ordu quruculuğu işləri, dövlətimizin iqtisadi gücünün artması, dünya birliyində nüfuzunun yüksəlməsi, uğurlu diplomatik siyasət xalqımızı qələbəyə doğru apardı. Ali Baş Komandanın qətiyyətli mövqeyi, ordumuzda, əsgərlərimizdə böyük ruh yüksəkliyinin olması, eləcə də döyüşkənlik əzmi, Qələbə əzmi idi. Böyük qəhrəmanlıq dastanına çevrilən uğurlu əməliyyatlar dünya dövlətləri tərəfindən belə, izlənilirdi. 30 ilə yaxın işğalda olan ərazilərimizdə düşmən tapdağından azad olunaraq, qürurumuz olan Azərbaycan bayrağı dalğalandırılırdı. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin".

Azərbaycan xalqı bu gün torpaqlarını işğaldan azad etmiş xalq olaraq, qürürla, məğrurluqla yaşayır. Otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan bu gün yeni bir dövrünə qədəm qoyub. Bütün dünyaya, məsafəsindən, qitəsindən asılı olmayaraq, hər bir kəsə öz böyüklüyünü, gücünü göstərdi. Əlbəttə ki, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı, xalq-iqtidar birliyi və ən əsası da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün dünyanı təəccübləndirən 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazdıq. Xüsusilə də Böyük Sərkərdəlik, Liderlik bacarığına malik dövlət başçımızın rəhbərliyi ilə Milli Ordumuzun qələbəsi qaçılmaz idi. Prezident, Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi və böyük Sərkərdəliyi sayəsində torpaqlarımız işğalçılardan azad edildi. Əlbəttə ki, Azərbaycan Ordusunun gücü dövlətin qüdrətinin nümunəsidir. Regionun hazırlıqlı Azərbaycan Ordusu ən müasir tələblərə cavab verən ordudur.

### "QƏLƏBƏNİ ƏLDƏ EDƏN ƏLİNDƏ SİLAH ƏSGƏRDİR, ZABİTDİR"

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. "Ordu quruculuğu birinci nömrəli vəzifə idi. Maddi-texniki təchizat, silah-sursatla təchizat, ordumuzun döyüş qabiliyyətinin qaldırılması və ilk növbədə, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə edilməsi - budur, qələbəyə aparan əsas amillər. Nə qədər sənin silahın, sursatın olsa belə, nə qədər müasir hərbi texnologiyalardan istifadə etsən belə, qələbəni əldə edən əlində silah əsgərdir, zabitdir"- deyə Prezident bildirib.

Müasir mütəşəkkil ordu yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindəndir. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilmişdi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu göstərdi. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı. Qüdrətli Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən vəzifəni - döyüş tapşırığını yerinə yetirməyə qadir olduğu bütün dünyaya nümayiş etdirildi. Eyni zamanda, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Bunlarla yanaşı, Azərbaycan həm Aprel döyüşləri, həm də Günnüt zəfəri çərçivəsində zamanı əldə etdiyi şanlı qələbə ilə, eləcə də diplomatik müstəvidə qazandığı üstünlüklə öz gücünü göstərdi. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını tezliklə erməni işğalında olan torpaqlarımızda da dalğalandıracağına inamımız sonsuz idi. Nəhayət, həmin zaman yetişdi.



### MÜKƏMMƏL HƏRBİ STRATEGİYA VƏ TAKTİKA DÖYÜŞ MEYDANINDA

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Prezident İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Vətən müharibəsində qazanılan zəfər bütün türk dünyasının qələbəsi olaraq dünyaya mesaj oldu. Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var.

### "AZƏRBAYCAN XALQININ ÇOXƏSRLİK TARİXİNDƏ BUNA BƏNZƏR PARLAQ QƏLƏBƏ OLMAMIŞDIR"

Müzəffər Ali Baş Komandanımızın dəmir iradəsi və uğurlu "Dəmir yumruq" əməliyyatı ilə qısa bir zamanda işğalda olan torpaqlarımız azad olunurdu. Xalq-Ordu-Lider birliyi sayəsində biz Qələbəni qazanmış olduq. Qələbəmizdə şəhidlərimizin böyük rolu olub. Məhz onların qanı-canı bahasına Qarabağımız azadlığına qovuşdu. "O, sinəsini qabağa verir, o, ölümə getməyə hazırdır və biz bunu göstərmişik" - deyən Prezident qeyd edib ki, ən çətin, əlverişsiz coğrafi vəziyyətdə altı müdafiə zolağını yararaq, döşənmiş bir milyondan artıq minanın üzərindən keçərək, təpələrdə yerləşmiş düşmən mövqelərini məhv edərək, Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq və şücaət göstərmişdir: "Əziz şəhidlərimizin xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq və biz bütün dünyaya Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərmişdik."

Bu gün Azərbaycanın işğaldan azad olunan ərazilərində Azərbaycan bayrağı dalğalanır. Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxışında bildirmişdir ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır. Artıq bu tarixi yaşadıq. "Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır", deyən Prezident qeyd edib ki, qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi.

### "20 SENTYABR 2023-CÜ İL BİZİM TARİXİMİZDƏ QALACAQ, NECƏ Kİ, 8 NOYABR"

Azərbaycan Ordusunun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması əlbəttə ki, ölkəmizin növbəti uğuru oldu. "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı cəmi bir gün, ondan da az çəkdi. Azərbaycan Ordusu peşəkarlıq və qəhrəmanlıq göstərərək, bütün strateji yerlərə çıxaraq, qısa müddət ərzində o əməliyyatın taleyini həll etdi və düşmən ordusu təslim olmağa məcbur oldu. Nəinki təslim oldu, hətta 30 il bundan əvvəl bizim torpağımızda yaratdıqları qondarma rejimə də xitam verildi, o rejim də süqut etdi, halbuki bu, qanunsuz rejim idi. Beləliklə, biz tarixi ədaləti bərpa etdik. 20 sentyabr 2023-cü il bizim tariximizdə qalacaq, necə ki, 8 Noyabr." Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyəti, müdrik siyasətinin nəticəsidir ki, Azərbaycan tarixinə böyük uğurlar və nailiyyətlər həkk olunur.

***Zümrüd BAYRAMOVA***

# Tarixin danışan həqiqətləri: Qarakənd faciəsi

***Ermənistan tərəfindən etnik terrora məruz qalmış Azərbaycan xalqına qarşı törədilən əməllər insani əxlaqa, qanuna, beynəlxalq hüquqa ziddir. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur. Müasir dövrün ən təhlükəli təzahürlərindən olan terrorizmin tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı acı nəticələrini yaşamışdır.***





Qarakənd faciəsinin baş verdiyi tarixi hadisədən bizi 32 illik bir zaman ayırsa da baş verən hadisənin faciəsi yaddaşımızda dünən kimi yer alıb. 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında Azərbaycana məxsus "Mi-8" hərbi helikopteri erməni silahlı quldurları tərəfindən vuruldu. Tarixi mənbələrə diqqət etsək görərik ki, 1991-ci il noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü keçirildi. Görüşün səbəbi Qarabağ müharibəsi və hansı xalqın sıxışdırıldığını diqqətə çatdırmaq olmuşdur. Bu səbəbdən də, həmsədrlər razılaşırlar ki, hadisələri öz gözləri ilə görsünlər və Xankəndiyə getsinlər. 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur və Azərbaycan Respublikasının Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Qarabağda keçirsin, çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı. Rayon komendantı Nikolay Jinkinin müavini, polkovnik Vladimir Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına "Aşanak" kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən "Krunk" təşkilatının Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, "Yevkrapa" cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının "Günün ekranı" xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam Hava Limanına verilən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.

### Mİ-8 N72 VERTOLYOTU İLƏ RABİTƏ ƏLAQƏLƏRİ KƏSİLİR

Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə, məhz polkovnik Georgi Septa çatdırır. 1991-ci il noyabrın 19-u siyahı tərtib olunur və ilkin siyahı Tofiq İsmayılovun rəhbərliyilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi qüvvədə qalır. Ancaq 1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil olunur. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23:00-da təsdiqləyir. Qarabağa gedəcək adamların siyahısı DQ rəhbərliyinə, Ağdam Hava Limanına, hərbi komendanta və Moskvaya göndərilir. Qrupun Qarabağ ərazisindəki fəaliyyətinə isə, üçlük nəzarət edir - Qarabağ təhlükəsizlik rəisi, polkovnik Georgi Septa, hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik və Xocavənd milis rəisi və polkovnik Oleq Osenov.

Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş və Ağdam, Xocalı hava limanlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan Mİ-8 N72 vertolyotun rabitə əlaqələri kəsilir. Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin "qəza" kimi şərhini verir. Həmin məlumatı saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlayır.

Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub. İlkin olaraq, Azərbaycanın nümayəndə heyətinin məlumatına görə, cəsədlərdən 12-si tam şəkildə tanınırdı, 3-cü qismən tanınırdı, qalanlarının şəxsiyyəti isə ekspertiza nəticəsində müəyyən edilib.

Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi.

Hər bir terror aktında insan ölümü diqqəti çəkir. Bu terror aktları qəddar, faşist xislətli əməllərdir ki, xalqımız bunu yaşayıb. 1992-ci il yanvarın 28-də daha bir terroru yaşamış olduq. Ağdamdan Şuşaya uçan "Mİ-8" mülki helikopterinin erməni terrorçuları tərəfindən Xankəndi istiqamətindən qumbaraatanla vurulması terrorun acı nəticəsidir. Terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermiş, hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdur. 44 nəfərin həlak olunması erməni faşist ideologiyasını bir daha üzə çıxarır. Göründüyü kimi, real həyatda terror aktlarından daha çox günahsız kütlə, dövlət adamları ziyan çəkir. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər. Azərbaycanın tarixində belə hadisələrin sayı kifayət qədərdir.

### BEYNƏLXALQ SƏNƏDLƏRİN MÜDDƏALARININ KOBUD ŞƏKİLDƏ POZULMASI

Terrorları törədən ermənilərin son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

2011-ci il martın 8-də düşmən snayperi tərəfindən səkkiz yaşlı Fariz Arzu oğlu Bədəlov qətlə yetirildi. 2016-cı il Aprel döyüşlərində düşmənin Tərtərin Həsənqaya kəndini atəşə tutması nəticəsində 2000-ci il təvəllüdlü Kəlbəcər sakini Həsənli Turanə Kamandar qızı dünyasını dəyişdi. 2017-ci ilin iyul ayının 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Füzuli rayonunun Alxanlı kəndində məskunlaşan mülki əhalinin yaşadığı yaşayış məntəqələrinin və mülki obyektlərin qəsdən 80 və 102 millimetrlik minaatanlardan və dəzgahlı qumbaraatanlardan atəşə tutulması nəticəsində, 1967-ci il təvəllüdlü yaşlı qadın Allahverdiyeva Sahibə və onun 2 yaşlı qız nəvəsi Quliyeva Zəhra həlak oldular. Təbii ki, mülki şəxslərin hədəfə alınması qəbuledilməzdir.

Bu və ya digər faktlar Ermənistanın Azərbaycanın mülki əhalisinə, xüsusilə uşaqlara qarşı vandalizminin sonu deyildi. 44 günlük Vətən müharibəsində xalqımız erməni terrorlarının daha acı nəticələrini yaşamış oldular. İşğalçı Ermənistan silahlı qüvvələri oktyabrın 11-də cəbhə bölgəsindən və münaqişə zonasından kənar yerləşən Gəncənin mərkəzi hissəsində yerləşən yaşayış binalarını raket atəşinə tutması nəticəsində 3-ü qadın olmaqla 9 nəfər həlak oldu, 16 qadın, 6 azyaşlı olmaqla 35 nəfər yaralandı. Vurğulamaq yerinə düşər ki, müharibə dövründə Goranboy rayonunun Qızılhacılı kənd sakini 2011-ci il təvəllüdlü Həsənov Elcan Elgün oğlu və Ağcabədi şəhərindən olan 2015-ci il təvəllüdlü İbrahimova Ayan Rövşən qızı yaralandı. Erməni terroru nəticəsində Ağcabədi rayonunun Taynaq kənd sakini, 2006-cı il təvəllüdlü İsgəndərov Fərid Dilafət oğlu, Naftalan rayonunun Qaşaltı kənd sakinləri 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və 2006-cı il təvəllüdlü Fidan Qurbanova həlak oldular.

Ermənistan silahlı qüvvələrinin raket və artilleriya atəşinə məruz qaldığı yaşayış məntəqələrindən biri də Bərdə şəhəridir. Bərdə şəhəri 5, 8, 27, 28 oktyabr və 7 noyabr tarixlərində raket və ağır artilleriya hücumlarına məruz qaldı. 2020-ci il oktyabrın 5-də Bərdə şəhərinin mərkəzi küçələrinə və mərkəzi xəstəxananın yaxınlığına düşmüş raket mərmisinin qəlpələrindən 2 nəfər həlak olub, 6 nəfər yaralanıb, mülki infrastruktura külli miqdarda ziyan dəyib. Ümumilikdə isə Bərdə şəhərində törədilən terrorlar nəticəsində 28 nəfər həlak olub, 108 nəfər yaralanıb.

44 günlük Vətən müharibəsi dövründə erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq Azərbaycanda mülki əhalinin sıx yaşadığı məntəqələrə zərbələr endirib. Artilleriya atəşi nəticəsində dinc sakinlərin evləri dağılıb, infrastruktura ciddi ziyan dəyib. Bütün bunlara baxmayaraq Azərbaycan xaqqı 44 günlük müharibədə Zəfər qazandı. Yaşadığımız tarix göstərir ki, erməni terrorlarının ölkəmizdə sayı-hesabı yoxdur.

Ermənistanın Azərbaycana hərbi təcavüz nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub. Bu, nə insanlığa, nə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən hüquqi normalara sığır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il noyabrın 17-də YAP Yasamal rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin büstü ziyarət olunub, büstün önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda xatirə fotosu çəkdirilib.



# YAP 31 İL - Zəfərlər ölkəsinin alternativi olmayan partiyası

## PREZİDENT İLHAM ƏLİYEV: "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır"

**31 il böyük inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. Düz 31 il öncə tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası zamanın sınaqlarından çıxmış, xalqın etimadını layiqincə doğrultmuş, müstəqil Azərbaycanımızın firavan gələcəyinin dünəni, bu günü və gələcəyi naminə öz fəaliyyətini göstərən siyasi partiyadır. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır".**

Hər bir siyasi partiyanın keçdiyi yolun əsaslarına diqqət yetirmək, onun fəaliyyətinin xronikası və dinamikasını tədqiq etmək üçün bir sıra müxtəlif məqamlara toxunmaq lazımdır. Ümummilli lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasını şəraitin diktəsi ilə meydana gələn tarixi zərurət kimi qiymətləndirərək söyləyirdi: "Yeni Azərbaycan Partiyası Azərbaycanda gedən ictimai-siyasi proseslərin içindən çıxmış zərurətdir. Azərbaycanda yaranan partiyaların bir çoxu ayrı-ayrı şəxslərin, siyasi fəaliyyətə başlayan şəxslərin şəxsi təşəbbüskarlığı ilə yaranan partiyalardır. Ancaq Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərənin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmışdır". Həmin vaxt hakimiyyətdə olan AXC-Müsavat liderlərinin bacarıqsızlığı, səriştəsizliyi, naşılığı ucbatından səriştəsiz qüvvələr öz antimilli, yeni milli maraqlardan uzaq siyasətləri ilə Azərbaycanı parçalanma, hətta məhvolma təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular. Belə bir mürəkkəb şəraitdə Azərbaycan xalqı xilası böyük dövlət xadimi və dahi şəxsiyyət Heydər Əliyevdə gördü. 1992-ci ilin oktyabrın 16-da 91 nəfər ziyalı "SƏS" qəzetində ümummilli liderimizə müraciət etdi. Müraciətdə qeyd edilirdi ki, "öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir".

### ULU ÖNDƏRİN "91-LƏR"İN MÜRACİƏTİNƏ CAVABI BÜTÜN XALQIN İSTƏYİNİ VƏ ARZUSUNU ƏKS ETDİRİRDİ

Tarixə məşhur "91-lərin müraciəti" kimi düşmüş həmin müraciəti imzalayan ziyalılar bütün bu təhlükələri görür və getdikcə vəziyyətin daha da ağırlaşacağını, illərlə həsrətində olduğumuz müstəqilliyimizin yenidən itirilməsi təhlükəsini bilirdilər. Məhz buna görə də hər zaman Azərbaycan xalqının güvəndiyi, arxalandığı, öz vətənini, millətini sonsuz məhəbbətlə sevən xilaskar liderə - Heydər Əliyevə müraciət etdilər. Bu müraciəti 91 nəfər imzalasa da, bütün xalqın istəyini və arzusunu əks etdirirdi. Həmin müraciət "Səs" qəzetində "Azərbaycan Sizin sözünüzü gözləyir" başlığı ilə dərc edilir. "91-lər"in müraciətinin əvvəlində Azərbaycanda mövcud vəziyyətə, onun baş verməsi səbəblərinə ümumi nəzər salınır: "Hamımız görürük ki, respublikamızın, xalqımızın vəziyyəti gündən-günə ağırlaşır. Azərbaycan sözün əsl mənasında siyasi, mənəvi böhran keçirir. Bunun da əsas səbəbi son illər respublikada mövcud olan və getdikcə daha da güclənən hakimiyyət böhranıdır. Ali hakimiyyət və idarəetmə orqanları Konstitusiyaya zidd, "real vəziyyətə uyğun" fəaliyyət göstərməklə, əslində, iflic vəziyyətinə düşmüşdür. Bir çox dövlət orqanları heç bir hüquqi əsas olmadan yaradılıb fəaliyyət göstərir. Bir sözlə, mövcud iqtidar ictimai-siyasi gedişatlara tam nəzarət edə bilmir".



### AZƏRBAYCAN SİZİN SÖZÜNÜZÜ VƏ QƏTİ QƏRARINIZI GÖZLƏYİR

"91-lər"in müraciətindən sonra 24 oktyabrda "SƏS" qəzetində Heydər Əliyevin Azərbaycan ziyalılarının müraciətinə cavab olan "Yeni, Müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubu dərc olundu. 5 noyabr tarixdə respublika ziyalılarının YAP təşkilat komitəsinin yığıncağı keçirildi. Heydər Əliyev yekdilliklə təşkilat komitəsinin sədri seçildi. 21 noyabr 1992-ci ildə isə Naxçıvan şəhərində YAP-ın təsis konfransı keçirildi və Heydər Əliyev açıq səsvermə yolu ilə partiyanın sədri seçildi.1993-cü ildə respublikada vəziyyət daha da ağırlaşdı, Gəncədə Surət Hüseynov silahlı qiyam qaldıraraq, dövlətə qarşı çıxdı. Xalq vətəndaş müharibəsinin bir addımında idi. İyunun 13-14-də Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Gəncə şəhərində oldu. O zaman Heydər Əliyev hakimiyyətə qayıdışı ilə yaranan vətəndaş müharibəsinin qarşısını almaqla, Azərbaycanı bölünmək, yox olmaq təhlükəsindən bir daha qorudu. Beləliklə, xalq öz tələbində qəti idi, təkidlə Heydər Əliyevin hakimiyyətə gəlməsini tələb edirdi. İyunun 13-də çağırılan parlamentin fövqəladə sessiyası iyunun 15-də öz işini davam etdirdi. Gündəlikdə bir məsələ dururdu: respublika Ali Soveti sədrinin seçilməsi. Bəzi təkliflərin olmasına baxmayaraq, deputatlar bir səslə Ali Sovet sədrinin seçilməsi məsələsini gündəliyə daxil etməyi qərara aldılar. Gizli səsvermə yolu ilə Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. 15 iyun günü xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi yazıldı. 3 oktyabr 1993-cü ildə Azərbaycanda Prezident seçkiləri keçirildi. Mərkəzi Seçki Komissiyasının məlumatına görə, Heydər Əlirza oğlu Əliyevin lehinə 98,8 faiz, əleyhinə 1 faiz səs verildi. 10 oktyabrda Respublika Sarayında (indiki Heydər Əliyev sarayı) prezident Heydər Əliyevin təntənəli andiçmə mərasimi keçirildi. Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı müstəqil ölkəmizin xilası, torpaqlarımızın işğalının dayandırılması, iqtisadi-sosial inkişaf, Azərbaycanın dünyaya açılması, iri neft müqavilələri, xarici investorların ölkəmizə gəlişi, qaçqın və məcburi köçkünlər üçün həyat şəraitinin təmini, bir sözlə, xilas və inkişaf idi. Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Qeyd edək ki, ulu öndər Heydər Əliyev ziyalılara göndərdiyi cavab məktubu da "SƏS" qəzetində dərc olundu. Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında "91-lər"in Ulu Öndərə müraciətinə yönəldərək onların fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Bu gün də onların bir çoxu bizim sıramızdadır. Bundan sonra da onlar fəal işlərlə məşğul olacaqlar, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasında fəaliyyət göstərəcəklər və ictimai həyatda fəaliyyət göstərəcəklər. Onları Azərbaycan xalqı unutmamalıdır. Mən Prezident kimi hər zaman onların fəaliyyətini yüksək qiymətləndirirəm. Təkcə ona görə yox ki, Heydər Əliyevə müraciət ediblər. Ona görə ki, qorxmadılar, çəkinmədilər, ölkə maraqlarını öz şəxsi maraqlarından üstün tutdular."

Ulu Öndər Heydər Əliyev ideologiyasının tərənnümü və tarixi reallığı əsasında yaranan və artıq 31-ci ildönümünə doğru inamla addımlayan YAP bu gün də öz uğur və tərəqqi sözünü deməkdədir. Məhz Azərbaycan xalqının və dövlətinin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin qətiyyəti, xalqımızın həmrəyliyi və dönməzliyi sayəsində, ölkəmizin ən çətin məqamlarında yaranan YAP bu gün regionumuzun ən böyük siyasi təşkilatı olaraq bir sıra əhəmiyyətli, qlobal məsələlərdə söz sahibi kimi çıxış edir. Və bu gün partiyamızın 31 ilini Qarabağımızın 30 ildən sonra 44 gün ərzində Ali Baş Komandanımız, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilən Qələbə günümüzün üçüncü ilinin sevincini yaşadığımız günlərdə qeyd edirik. Məhz bu baxımdan da, bu gün Azərbayacanın son illərdə qazandığı böyük nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı və bu gün Prezident İlham Əliyevin Sədri olduğu Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır.

### YENİ AZƏRBAYCAN PARTİYASI BUNDAN SONRA DA ÖLKƏMİZDƏ GEDƏN BÜTÜN PROSESLƏRİN MƏRKƏZİNDƏ OLACAQ

Dövlət başçısı İlham Əliyevin iki il əvvəl partiyanın VII qurultayında böyük əminliklə söylədiyi bu fikirlər keçilən yolun təhlili fonunda qarşıdakı hədəflərin təqdimatı oldu. Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının fəaliyyətində yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilən 5 mart 2021-ci il tarixdə keçirilən VII qurultaydan iki il ötür. Hər günü zəngin tarixinə uğur səhifəsi kimi yazan YAP-ın ötən iki ildə yeni Nizamnaməyə və Proqrama uyğun atdığı addımlar, həyata keçirdiyi tədbirlər bugünümüzün reallıqlarında özünün aydın ifadəsini tapır. Qurultayın keçirilməsini zəruri edən əsas amil tarixi Zəfərimizin yaratdığı reallıqlar, partiyanın Proqramında əksini tapan hədəflərin hər birinə yüksək səviyyədə nail olması idi. Ulu öndər Heydər Əliyevin ən böyük arzularından biri ərazi bütövlüyümüzün təmin olunması, işğaldan azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanması, soydaşlarımızın öz doğma-yurd yuvalarına qayıtmaları idi. Bu hədəf dahi şəxsiyyətin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının Proqramında da öz əksini tapmışdır.

Ermənistan torpaqlarımızı işğal altında saxladıqları dövrlərdə xalqımız inanırdı ki, Heydər Əliyev siyasi kursunu, irsini davam etdirən müdrik, qətiyyətli, uzaqgörən siyasətçi, eləcə də mahir diplomatik bacarığa, sarsılmaz siyasi iradəyə sahib cənab Prezident İlham Əliyev Azərbaycanı dünyada güclü bur dövlətə çevirəcək, düşmən tapdağında olan torpaqlarımızı azad edəcək. 2003-cü il oktyabrın 15-də ilk dəfə Prezident seçilən cənab İlham Əliyev andiçmə mərasimində torpaqlarımızı işğaldan azad edəcəyi, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini bərpa edəcəyi barədə xalqa söz verdi. Prezident İlham Əliyev Azərbaycanda milli birliyin bərqərar olmasına nail oldu. Azərbaycan iqtisadiyyatı hər il artdı, ordumuzun maddi texniki bazası yeniləndi, ən müasir silahlarla təmin edildi, güclü milli ordu yaradıldı. Bütün bu işlər bizi böyük Zəfərə yaxınlaşdırırdı. 2020-ci ildə Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Ermənistanın hərbi təxribatının qarşısını alaraq əks hücuma keçdi və 44 gün ərzində Ermənistan ordusunu darmadağın edərək şəhər və kəndlərimizi işğaldan azad etdi. Azərbaycanın əsgər və zabitləri misli görünməmiş böyük qəhrəmanlıq göstərdilər, müharibə zamanı bir addım belə geri çəkilmədilər. Azərbaycan Ordusunun qəhrəmanlığı, şücaətindən qorxuya düşən erməni əsgərləri təşviş içində döyüş meydanlarınl tərk edirdilər. Ermənilər özləri etiraf efirdi ki, 44 günlük müharibə zamanı 12 min erməni əsgər və zabiti fərarilik etmişdir. Azərbaycanın Silahlı Qüvvələrinin bir nəfər hərbiçisi belə döyüş meydanını tərk etməmişdir. 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi Zəfər bayramımız kimi tarixə yazıldı. Şuşa işğaldan azad edildikdən sonra Ermənistan məğlub olduğunu başa düşdü. 2 gün sonra 10 noyabr 2020-ci ildə Ermənistan məğlub olduğunu etiraf edərək kapitulyasiya aktına imza atdı. 2023-cü ilin sentyabrında Azərbaycan Ordusunun həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərini uğurla başa çatdırdıqdan sonra Azərbaycanın suverenliyi tam bərpa edildi, Qarabağda separatizmin kökü kəsildi. Oktyabrın 15-də Prezident İlham Əliyev Xankəndində Azərbaycan bayrağını ucaltması Azərbaycan tarixində şanlı bir gün oldu. Prezident İlham Əliyev 20 il əvvəl xalqımıza verdiyi bütün vədləri yerinə yetirdi. Bu gün dünya ictimaiyyəti, o cümlədən ermənilər və onların havadarları da yaxşı başa düşürlər ki, Prezident İlham Əliyev nəyi deyibsə, ona da əməl edib. Ölkə başçımızın sözü imzası qədər dəyərlidir. Hərbi paradda Prezident İlham Əliyevin söylədiyi fikirlər Ermənistana və onun havadarlarına bir mesaj olmalıdır. Ermənistan hakimiyyəti, revanşist qüvvələr və onların arxasında dayanan ölkələr Ermənistanın 2020-ci ildə düşdükləri aqibəti unutmamalıdır.

Ardı Səh. 5

Əvvəli səh. 4

### PREZİDENT İLHAM ƏLİYEVİN APARDIĞI SİYASƏTİN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ, EYNİ ZAMANDA, ONUN SƏDRİ OLDUĞU PARTİYANIN MƏQSƏD VƏ VƏZİFƏLƏRİ DEMƏKDİR

Bəli, bu gün Prezident İlham Əliyevin apardığı siyasətin məqsəd və vəzifələri, eyni zamanda, Onun Sədri olduğu partiyanın məqsəd və vəzifələri deməkdir. Buna görə də Prezident İlham Əliyevin təsdiq etdiyi, cəmiyyətin müxtəlif sahələrinin inkişafını nəzərdə tutan milli prioritetlər, dövlət proqramları, konsepsiyalar, İnkişaf strategiyaları və fəaliyyət planlarındakı müddəalar partiyanın proqramında öz əksini tapmışdır. Partiyanın yeni proqramı beş fəsildən - "Partiyanın inkişafı və uğurları", "Siyasi dəyərlər və prinsiplər", "Partiyadaxili münasibətlərin və partiyanın fəaliyyətinin əsasları", "Partiyanın əsas hədəfləri" və "Müzəffər liderlə Azərbaycanı yeni zirvələrə aparan güclü partiya" ibarətdir. Hər bir fəsil sosial-iqtisadi, siyasi, mənəvi-mədəni, ordu quruculuğu, xarici siyasət, vətəndaş cəmiyyəti və s. sahələri əhatə edən bölmələrə ayrılır. Hər bir bölmədə partiyanın qarşısında dayanan hədəflər və vəzifələr göstərilir. YAP-ın proqramında partiyanın inkişaf tarixinə və uğurlarına nəzər salınır, onun Heydər Əliyev yoluna və irsinə sadiqliyi, qarşısına qoyduğu məqsəd və vəzifələri böyük məsuliyyətlə, layiqincə yerinə yetirdiyi vurğulanır. Hüquqi dövlətin və vətəndaş cəmiyyətinin, bazar iqtisadiyyatı münasibətlərinin inkişafı istiqamətində YAP-ın fəaliyyətinin tarixi-siyasi əhəmiyyəti qeyd olunur. Bildirilir ki, xalqımızın Heydər Əliyevə dərin inam və etimadı nəticəsində YAP yarandıqdan sonra respublikanın bütün bölgələrində onun təşkilatlanması prosesi başladı, partiyanın sıraları sürətlə genişləndi.

Bəli, bu, reallıqdır ki, cəmiyyət daim yenilәşir, ictimai münasibətlərin inkişaf səviyyəsi yeni çağırışlar və reallıqlar yaradır. Bütün bunlar da öz növbəsində YAP-ın hakim partiya kimi qarşısında yeni tələblər və vəzifələr qoyur. Burada bir məqamı xüsusilə qeyd etməliyik ki, YAP həm cəmiyyətin irəliyə doğru, keyfiyyətcə yeni inkişaf mərhələlərinə daxil olmasını və onun mütərəqqi inkişafını təmin edən aparıcı siyasi qüvvə kimi çıxış edir, həm də yaratdığı yeni çağırışları və reallıqları özü tənzimləyərək, gələcəyə istiqamətlənmiş məqsəd və vəzifələr müəyyənləşdirir. Məhz bundan irəli gələrək, YAP-ın 2021-ci il martın 5-də keçirilmiş VII qurultayında partiyanın qarşısına yeni hədəflər və vəzifələr qoyulmuşdur. Prezident İlham Əliyev qurultaydakı çıxışı zamanı YAP-ın müasir dövrün çağırışlarını özündə əks etdirən yeni proqramının hazırlanmasının vacibliyini bildirmişdir. Prezident İlham Əliyevin çıxışlarından irəli gələn vəzifələri rəhbər tutaraq və ölkəmizin davamlı inkişafı, Azərbaycanın xarici siyasət sahəsində strateji maraqları, dördüncü sənaye inqilabının ictimai həyata göstərdiyi təsirləri və 44 günlük Vətən müharibəsində şanlı qələbənin yaratdığı reallıqları nəzərə alaraq, YAP-ın "Biz birlikdə güclüyük!" devizi altında yeni proqramı işlənib hazırlanmış və partiyanın İdarə Heyətinin 29 dekabr 2021-ci il tarixli qərarı ilə təsdiq edilmişdir. Budur, Qalib xalqın Qalib Partiyası. 31 il böyük inkişaf yolu keçən Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət, o dövrdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.

### QƏLƏBƏLƏR, QALİBLƏR PARTİYASI - YENİ AZƏRBAYCAN PARTİYASI

# YAP 31 İL - Zəfərlər ölkəsinin alternativi olmayan partiyası

## PREZİDENT İLHAM ƏLİYEV: "Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi partiyasıdır"

Bəli, Yeni Azərbaycan Partiyası 31 il şərəfli yol keçərək monolitliyini qorudu, gücləndi, öz üstünlüyü, parlaq qələbələri ilə heç bir seçkidə rəqib tanımadı. Yeni Azərbaycan Partiyasının seçkilərdə qazandığı qələbələr bu partiyanın cəmiyyətdəki yerinin möhkəmliyini, dövlətçiliyimizin gücləndirilməsi istiqamətində həyata keçirilən siyasətə xalq dəstəyini, insanların bu təşkilata yüksək etimadını göstərir. Bütün iştirak etdiyi seçkilərdə Yeni Azərbaycan Partiyası qələbə qazanaraq bir daha ölkə vətəndaşlarının Azərbaycan reallığına verdiyi qiymət və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasətə inamın ifadəsidir. Bu, həm də hər bir vətəndaşın Prezidenti olduğunun göstəricisi, Azərbaycanın hərtərəfli inkişafı, verilən hər bir vədin konkret əməli işdə öz təsdiqini tapması ildən-ilə xalq-iqtidar birliyini göstəricisidir. Məhz bu gün sevinirik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır, qalib gəlir. Azərbaycan Prezidenti, Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən bu ölməz amallar sədaqətlə, cəsarətlə daha müvəffəqiyyətlə həyata keçirilir. Necə ki, Yeni Azərbaycan Partiyasının yaradıcısı, Azərbaycan xalqının xilaskarı ulu öndərimiz Heydər Əliyev demişdir: "Yeni Azərbaycan Partiyası dünənin, bu günün, gələcəyin partiyasıdır". Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev martın 5-də partiyanın keçirilən VII qurultayında çıxışı zamanı bir çox məsələlərə toxunaraq partiyamızın VII qurultayı ölkəmizin ictimai-siyasi həyatında önəmli hadisə olduğunu bildirmişdir. Azərbaycan Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının VI qurultayından üç il ötdüyünü və bu illər ərzində böyük nailiyyətlər və qələbələr əldə olunduğunu deyib: "Bu illər ölkəmiz üçün, bölgəmiz üçün həlledici illər olmuşdur. Üç il ərzində ölkə həyatında bir çox önəmli hadisələr baş vermişdir. Təbii ki, onların arasında ən önəmlisi ərazi bütövlüyümüzün bərpa edilməsi, Vətən müharibəsində parlaq Qələbənin qazanılmasıdır. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları əzəli torpaqlarımızdan qovdu və beləliklə, tarixi ədalət bərpa olundu. Bizim şanlı Qələbəmiz qürur mənbəyimizdir".

Bəli, bu Qələbə həqiqətən də bizim qürur mənbəyimizdir. Bu reallığı Azərbaycan xalqı görür və bəlkə də bu, son 30 ildə bu qədər qürurlu olmamışdı - 44 gün ərzində tariximizin Zəfər Salnaməsi yazıldı, Bütövləşən Azərbaycanımız - Qarabağ Azərbaycanımıza qovuşduq. Məhz bu Böyük Qələbə Prezident İlham Əliyevin sözünə, vədinə sadiq qalan dövlət başçısı imicini qazanması bütün sahələrdə təsdiqlənməsinin reallığıdır. Bu yerdə Prezident İlham Əliyevin 2003-cü ildə keçirilən andiçmə mərasimində söylədiyi bu fikirləri bir daha yada salmaq yerinə düşər: "Bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Ümummilli Lider Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən, mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm". Prezident İlham Əliyev keçirilən qurultayda da bildirib ki, Yeni Azərbaycan Partiyasının adı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bir sözlə, müstəqilliyimiz, dövlətçiliyimiz, tərəqqimiz naminə mühüm siyasi qərarların verildiyi və fəaliyyətin göstərildiyi tarixi bir platformaya çevrilən Yeni Azərbaycan Partiyası bu gün regionun ən böyük siyasi partiyası olmaqla, banisi Heydər Əliyevin ideyaları əsasında yaradıcılıq, quruculuq ruhunu günü-gündən gücləndirməkdədir. Partiyanın Sədri, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş komandan cənab İlham Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyası özünün siyasi çevikliyini, milli inkişaf naminə təşəbbüskarlığını artırmaqda, elektoral bazasını gücləndirməkdədir. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev cənablarının söylədiyi kimi: "YAP, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyamızın böyük ənənələri var. Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq".

Bəli, bu gün Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı Yeni Azərbaycan Partiyasının yaranması ildönümünü tarixi bir anlarda- Qarabağımızın, Azərbaycanımızın, Ali Baş Komandanımız, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin diplomatik siyasəti, Müzəffər Ordumuzun, rəşadətli əsgər və zabitlərimizin Qələbəsi günündə qeyd edirik. Ona görə də deyirik - Yeni Azərbaycan Partiyası, ildönümün mübarək! Qarabağ Azərbaycandır! Gözün aydın, Azərbaycan!

***RƏFİQƏ KAMALQIZI***

# "ABŞ "erməni haqqını" müdafiə etmək üçün Azərbaycana böhtan atır"

*MÜNASİBƏT*

"30 ildən artıq Azərbaycan torpaqları erməni silahlı qüvvələrinin işğalı altında qaldı. Bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün həyatını yaşamağa məcbur edildi, əmlakları yandırıldı, qarət edildi, evləri məhv edildi. Dini, mədəni və tarixi abidələrimiz ən ağır vəziyyətə salındı. O zaman ABŞ və onun Senatı nə etdi?! Azərbaycanla bağlı qərar qəbul etdi. Hansı ki bu qərarın mahiyyəti ondan ibarət idi ki, guya Azərbaycan Ermənistanı blokadada saxlayır və ermənilərin vəziyyətini biz ağırlaşdırmışıq. Bu ABŞ-ın siyasəti, onun Azərbaycana və Ermənistana olan münasibəti idi. Ona görə də 30 ildən sonra Azərbaycan öz tarixi torpaqlarını hərb yolu ilə qaytararkən, o zaman da Amerika narahat şəkildə ermənilərin müdafiəsi kimi ortalığa atıldı". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Anar İsgəndərov deyib.



Onun sözlərinə görə, bu gün də "erməni haqqını" müdafiə etmək üçün ABŞ-ın nümayəndələr palatası və dövlət katibinin köməkçisi Ceyms O'Brayn Azərbaycanı ittiham edir: "ABŞ dövlət katibi Azərbaycana böhtan atır, Ermənistana isə haqq qazandırır. 30 il Azərbaycan torpaqları işğal altında qalanda da, indi öz tarixi torpaqlarını düşmən işğalından azad edəndə də günahkar Azərbaycan olur? Bəs onda ABŞ-ın əsl sifəti harada qaldı? ABŞ-ın dövlət siyasəti harada qaldı? Siyasətdə belə haqq və ədalət olmur. Amma dünyanın bu məsələyə münasibəti necədir?!

On illərlə öz torpağından, ev-eşiyindən məhrum olan insanlar çadırlarda, vaqonlarda, susuz və səhralı yerlərdə yaşayıb. Bəs onda ABŞ nə üçün Ermənistana "Bu torpaqları sən işğal etmisən" demir? Ona görə də nə vaxtsa Amerikanın bizə münasibətdə bir ədalətli mövqeyinin olacağı şübhə altındadır. İnanmıram ki, ABŞ-ın belə bir mövqeyi olsun. Çünki tarix boyu müstəmləkəçi və işğalçı dövlətlər heç vaxt ədalətin axtarışında olmayacaq. Onlar öz maraqlarını təmin etmək üçün hər şeydən keçirlər".

Deputat sözlərinə davam edərək bildirib ki, bugün də ABŞ konqresində olan erməni lobbisi, Ermənistana xidmət edən senatorlar bu məsələni onlara sərf etdiyi kimi ictimaiyyətə çatdırmaq istəyirlər: "Onlar erməni göz yaşını ortalığa atırlar. Guya ermənilər Qarabağdan məcburi köçürülüb. Necə məcburi köçürülüb ki, bütün dünya onların könüllü getməklərinə şahid olub? Hamı görür ki, burada insan öldürülmür, heç kimə işgəncə verilmir və əmlak müsadirə olunmur. Heç bir dövlət bu səhnələrə şahid olmadı, çəkilişlərin heç birində bu vəziyyətə rast gəlinmədi, amma Amerika bunu gördü? Fransa bunu gördü?

Bu o deməkdir ki, həmin dövlətlər Azərbaycana qarşı düşmən münasibəti bəsləyir. Onların siyasəti ədalətsizdir. Ona görə də Azərbaycan öz haqq yolu ilə gedir. Bu yol ədalətli yoldur. Azərbaycanın da haqqını müdafiə edən dövlətlər var. Amma ilk növbədə azərbaycanlı özü öz haqqını görür. 10 milyon Azərbaycan vətəndaşı dəmir yumruq kimi birləşib. Çünki Azərbaycanın düşmənləri qəddar və ədalətsizdir. Ona görə də Azərbaycan 44 günlük müharibədə, ən nəhayət 2023-cü ilin sentyabrında öz problemini özü həll etdiyi kimi bundan sonra da dövlətimiz heç kimin təzyiqini qəbul etmir. Qəbul etdiyi hər hansı bir qərar da kağız üzərində olur və öz haqq yolu ilə gedir. Kim hansı böhtanı atarsa-atsın Azərbaycan bu böhtanlara baş əyməyəcək və haqq yolunu davam etdirəcək".

***Ləman Sərraf***

# Laçın köç karvanlarını qarşılayır



İllər öncə yurd-yuvasından didərgin düşənlər bu gün sönmüş çiraqlarını yandırıb, yeni həyata başlayırlar. Bu həyat acı keçmişi arxada qoyub xoşbəxt bir dünyaya səsləyir insanları. Köç karvanları nisgilli, kədərli bir ömür yaşamış insanları əzəli torpaqlarına çatdırır. Bu karvanlar sanki növbəyə düzülüb. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan ərazilərə köçlər davam edir. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılamağa davam edir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. İnsanların doğma yerlərdən səsləri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur.

Bu gün işğaldan azad olunan digər ərazilərimiz kimi, Laçın da abadlıq-quruculuq meydanına çevrilib. Yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bildiyimiz kimi, bir neçə gün əvvəl - noyabrın 14-də növbəti köç karvanı ilə Laçına çatan ailələrə evlərinin açarları təqdim olundu. Laçın şəhəri bu dəfə daha 10 ailəyə qucaq açmış oldu. 40 nəfər laçınlının yurd həsrəti bitdi. 31 ildən sonra yenidən Laçına qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşdu. Bununla da Laçın şəhərində 325 ailənin, yəni 1245 nəfərin daimi məskunlaşması təmin edilmiş oldu.







Qeyd edək ki, köçürülən ailələrin Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşması üçün bütün şərait yaradılıb.

## "KEÇMİŞ KÖÇKÜNLƏR ÜÇÜN ŞƏRAİT ƏN YAXŞI OLMALIDIR"

Laçının Zabux kəndi də bu sevinci yaşadı. İlk mərhələdə 88 nəfərdən ibarət 20 ailə Zabuxa köç etdi. Bakıdan, Lökbatandan Zabuxa yol alan karvan məcburi köçkünləri neçə ilin həsrətindən sonra el-obası ilə görüşdürdü. Ailə tərkibinə uyğun olaraq, onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü beşotaqlı mənzillə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar. Qeyd edək ki, ümumi sahəsi 81 hektar olan Zabux kəndinə 245 ailənin köçürülməsi nəzərdə tutulur. Kənddə 50 yerlik uşaq bağçası, inzibati bina, tibb məntəqəsi inşa edilib. Əlbəttə ki, Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsidir. İşğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə bütün Qarabağ və Şərqi Zəngəzur kimi, Laçında da nəhəng bərpa və yenidənqurma işlərinə başlanılıb. Baş plana əsasən, şəhərdə ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur. Laçında indiyədək bir sıra infrastruktur layihələri icra edilib. Şəhər ərazisində 7 park salınır ki, onların da artıq ikisində işlər tamamlanıb. İdman kompleksi və Həkəri çayının ətrafında çimərlik-istirahət mərkəzi salınır. Eyni zamanda, yollar relyefə uyğun olaraq genişləndirilib, işıqlandırma işləri görülüb. Şəhərin işıqlandırılması müasir modelə tam uyğunlaşdırılıb. Yeni yollar salınır, infrastruktur qurulur, kəndlər, qəsəbələr bərpa edilir. Planlı və sistemli şəkildə görülən bütün işlər bilavasitə dövlətimizin başçısı cənab İlham Əliyevin nəzarəti altındadır. Müharibədən ötən müddət ərizində görülən işlər bu ərazilərdə əzəli sakinlərin tam yaşayışının təmin edilməsinin təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız".

## ZABUX KƏNDİNDƏ 46 AİLƏNİN DAİMİ MƏSKUNLAŞMASI TƏMİN EDİLİB

Onu da qeyd edək ki, noyabrın 16-da Laçın rayonunun Zabux kəndinə yola düşən növbəti köç karvanı da ünvanına çatdı. Laçının Zabux kəndi bu gün 25 ailəyə qucaq açıb və daha 94 nəfərin yurd həsrəti bitmiş oldu.

31 ildən sonra yenidən doğma kəndinə qədəm qoyan ailələr həsrətini çəkdikləri kəndin gözəl mənzərəsi ilə tanış oldular. Bununla da Zabux kəndində 46 ailənin, yəni 188 nəfərin daimi məskunlaşması təmin edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın rayonunun Zabux kəndinə növbəti köçü reallaşıb.

Vətən müharibəsində qazandığımız Zəfərdən üç il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Ağalı, Talış kəndələrinə, daha sonra Laçın və Füzuliyə qayıdış Məlumdur ki, dekabrın 1-i 2020-ci il tarixində Laçın rayonu Azərbaycan Respublikasına qaytarıldı. Bu, Azərbaycan Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatında öz əksini tapmış oldu.

## "2025-Cİ İLİN ƏVVƏLLƏRİNDƏ HAVA LİMANI İSTİSMARA VERİLƏCƏK"

Artıq Laçın yenidən qurulur. Laçın rayonunun yenidən bərpası ilə bağlı işlər aparılır, bir çox işlər görülüb. "O bölgədə heç vaxt hava limanı olmamışdır və hava limanının yerini müəyyən edərkən böyük çətinliklərlə üzləşmişdik. Çünki orada uçuş-enmə zolağının inşası üçün düz yer tapmaq mümkün olmadı. Biz dağları kəsərək və böyük torpaq işlərini həyata keçirərək bütün dağlıq ərazilərdə, dağlarla əhatə olunan ərazilərdə beynəlxalq hava limanı inşa edirik. Yəqin ki, gələn ilin sonunda, ya da 2025-ci ilin əvvəllərində hava limanı istismara veriləcək", - deyə Prezident bildirmişdir.

Görülən və görüləcək işlər böyük quruculuq, abadlıq işləridir. Təbii ki, Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı layihələrin reallaşmasına imkan verir. 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir.

Bu gün işğaldan azad olunan ərazilərimiz abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib.

Onu da bildirək ki, işğaldan azad olunan ərazilərə Böyük Qayıdış proqramı üzrə köçürülən sakinlərin məşğulluğuna dəstək tədbirləri davam etdirilir. Belə ki, Qarabağda ilk əmək yarmarkası keçirilib. Füzuli şəhərində, Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbdə keçirilən aktiv məşğulluq tədbiri şəhərə köçürülən sakinlər üçün təşkil olunub və işəgötürənin iştirak etdiyi tədbirdə müxtəlif istiqamətlər üzrə 200-ə yaxın vakansiya təqdim edilib.

Yarmarkaya qatılan sakinlərə vakansiyalar, iş öhdəlikləri haqqında məlumat verilib, müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlərin qeydiyyatı aparılıb.

Artıq şəhərə köçürülən 258 ailənin üzvlərinin məlumatları təhlil olunub, uyğun şəxslərin məşğulluq imkanları qiymətləndirilib və məşğulluq tədbirlərinə cəlb edilmələrinə başlanılıb. Görülən işlərin nəticəsi olaraq artıq 73 nəfər münasib işlərlə təmin edilib, 20 nəfər müxtəlif istiqamətlər üzrə özünüməşğulluq proqramına cəlb olunub. Hazırda daha 150-dək sakinin məşğulluğunun təmin olunması istiqamətində iş aparılır.

Azərbaycanın iqtisadi gücü, dinamik inkişafı işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərini sürətləndirir. Əlbəttə ki, 30 ilə yaxın işğalda olan torpaqların bərpası, yenidən qurulması vaxt və maliyyə imkanları tələb edir. Bu gün işğaldan azad olunan və üçrəngli bayrağımız dalğalanan ərazilərimizdə müasir infrastruktur yaradılır.

***Zümrüd BAYRAMOVA***

# Uşaqlar bizim deyil...

**2000-ci ildə Ümumdünya Qadınlar Konfransı, beynəlxalq hökumətləri və Qeyri-Hökumət Təşkilatlarını, BMT-nin 19 və 34-cü maddələrinin icrasında daha fəal olmağa təşviq etmək məqsədilə 19 noyabrı Ümumdünya Uşaq Zorakılığının Qarşısının Alınması Günü elan etdi. Qeyd edək ki, bu iki maddədə hər bir uşağın hər cür zorakılığa (o cümlədən cinsi zorakılığa) məruz qalmadan yaşamaq hüququ olduğu və belə halların qarşısının alınmasının vacibliyi qeyd olunur. Bununla əlaqədar olaraq, 20 Noyabr Beynəlxalq Uşaq Hüquqları Günü ilə paralel olaraq hər il 19 noyabr bir çox ölkələrdə Ümumdünya Uşaq Zorakılığının Qarşısının Alınması Günü kimi qeyd olunur.**




## Uşaq istisması nədir?

Uşaq istisması uşaqla fiziki və ya psixoloji pis rəftar edilməsidir. Dünyanın bütün ölkələrinin qanunlarında və Cinayət Məcəllələrində uşaqlara qarşı pis rəftarın nə olduğunu, hansı halların cinayət məsuliyyəti yaratdığı müəyyən edilib.

Fiziki zorakılıq uşağa fiziki zərər verdikdə baş verir. Fiziki istismar xəsarətləri uşağı çimdikləmək, dişləmək, vurmaq, təpikləmək, yandırmaq, ağzını örtməklə boğmağa cəhd etmək, şiddətlə silkələmək və ya uşağın bədəninə hər hansı başqa yolla zərər vurmaqdır. Bu xəsarətlərdən bəziləri uşaq oynayarkən təsadüfən baş vermiş ola bilər. Bununla belə, yaraların yeri və zədələnmə tezliyi fiziki zorakılıqdan şübhələnməyə səbəb olmalıdır.

Hər il minlərlə uşağın valideynləri və ya yaxın qohumları tərəfindən fiziki zorakılığa məruz qaldığı təxmin edilir. Bu uşaqlar arasında ağır yaralananların, hətta həyatını itirənlərin də olduğu bildirilir. O da məlumdur ki, fiziki zorakılıq nəticəsində yaranan emosional travma fiziki yaralar qədər tez sağalmır. Psixo-emosional zərərin təsiri yeniyetməlik dövründə və ya daha sonralar fiziki zorakılığa məruz qalan bir çox uşağın öz övladlarına qarşı da eyni cür davranması zamanı meydana çıxır.

## Təhqir, hədə, lağ - hamısı zorakılıqdır

Məişət zorakılığının şahidi olmaq belə, uşaqlara və onların gələcəyinə ciddi təsir edir. Bir çox valideynlər uşağın bu zorakılıqdan təsirlənməyəcəyini və ya uşaq zəkasının tezliklə unudacağını düşünür. Ancaq uşaqlar unutmurlar. Anasına zorakılıq edən atasını, özündən böyüyün kişiyə etdiyi zorakılığı yaddaşlarının bir küncündə mühavizə edirlər. Məlumdur ki, ailədaxili zorakılığa şahid olan uşaqlarda emosional və davranış pozğunluqları digər uşaqlara nisbətən daha yüksəkdir. Bu zorakılıq uşaqlara onların yaşından, cinsindən asılı olaraq fərqli təsir göstərir.

Zorakılığa məruz qalan uşağın ailəsində münaqişə, uğursuz evlilik və mənəvi zorakılığın olması, ögey ana və ya ata faktoru, ailə daxilində qərar qəbulu zamanı uşağın fikrinin soruşulmaması, ailənin yaşadığı maddi problemlərdən qaynaqlanan zorakılıqlar və fiziki cəzalar onu gələcəkdə zorakılıq tətbiq edən biri olmağa sürükləyir.



Uşaqlara edilən bir zorakılıq növü də psixolojidir. Uşağı aramsız danlamaq, təhqir etmək, hədələmək, günahlandırmaq, uşaqdan incimək, uşaq yoxmuş kimi davranmaq, uşağı ələ salmaq psixo-emosional zorakılıqdır.

## İnsanlığın sonu - cinsi istismar

Uşaqların cinsi istismarının cəmiyyət tərəfindən qəbul edilməsi çətin olduğu üçün onu müəyyən etmək və aşkara çıxarmaq da çox vaxt çətin olur, buna görə də təəssüf ki, çox vaxt bu hal gizli qalır. Uşaqlara qarşı cinsi istismar əvvəllər tamamilə yad insanlar tərəfindən törədilirdi. Lakin faciəvi haldır ki, indi cinsi istismara məruz qalanlar arasında ana, ata, ögey ana, ögey ata, qardaş, qohum, müəllim, qonşusunun və s yaxın adamın istismarına məruz qalanlar çoxluq təşkil edir. Cinsi zorakılığa daha çox boşanma, zorakılıq, alkoqol və narkotik maddə istifadəsi olan ailələrdə rast gəlinir.

Heç bir uşaq psixoloji cəhətdən cinsi zorakılıqla mübarizə aparmağa hazır ola bilməz. Hətta iki-üç yaşlı uşaq belə bu hadisənin nə olduğunu anlamasa belə, sonrakı həyatında bu hadisədən mənfi təsirlənəcək. Beş və daha yuxarı yaşda olan uşaqların zorakılıq edəni tanıdıqları halda çaşqınlıq yaşamaları normaldır. Onlar cinsi qısnama edən şəxsi tanıdıqları halda ona sevgi bəslədikləri üçün təcavüzü heç kimə demirlər. Bəzən də qorxu hissi ilə bunu gizlədirlər. Uşaqlıq, cinsi inkişafın və biliklərin hələ tamamlanmadığı bir dövrdür. Bu dövrdə o, hər hansı cinsi zorakılıq hərəkətini ya anlamayacaq, ya da gizlədilməsi vacib bir vəziyyət kimi xarakterizə edəcək.

## Uşaqlar arasında mənəvi və fiziki zorakılıq

Uşaqlar və ya yeniyetmələr arasında mənəvi-emosional və fiziki zorakılıq məktəblərdə rast gəlinə bilən bir hadisədir. Bu bullinq adlandırılır, şagirdin bir və ya bir neçə şagird tərəfindən təkrar və davamlı olaraq mənfi davranışa məruz qalması kimi müəyyən edilir. Uşaq və yeniyetmələr arasında kənarlaşdırma, lağ etmə, təcrid etmə, başqalarına aqressiv davranma, problemləri fiziki güclə həll etməyə çalışmaq fiziki və emosional zorakılığa nümunədir. Bu cür fiziki və psixoloji aqressiv davranışlara məruz qalan uşaqlar zaman keçdikcə özünü gücsüz hiss etməyə başlayır, müti olur.

Uşaq istismarının əlamətlərinə gəlincə, zorakılığa məruz qalan uşaq hədələndiyi, qorxudulduğu və ya utandığı üçün başına gələnləri valideynlərinə deməyə bilər. Ancaq valideynlər bəzi əlamətlərdən övladının zorakılığa məruz qaldığını anlaya bilər. Uşağın yırtılmış paltarı, bədənində kəsiklər, yaralar, qançırlar, əşyalarını itirməsi, yaxın dostlarından uzaqlaşması, məktəbə getmək istəməməsi, yuxu və yemək pozğunluqları, dərslərində geriləmə, ünsiyyətdən qaçması, sosial münasibətlərinin zəifləməsi, yatağını islatması, aqressiv film və mahnılara meyilliliyi onun başına gələnlərdən xəbər verir.

## Dövlət nə edir?

Uşaq zorakılığının qarşısının alınması mərhələsinə gəlincə, deyə bilərik ki, bunun ən sınanmış yolu cəmiyyətin təhsil səviyyəsi və cəzalandırma sisteminin möhkəmlidir. Təhsil, gələcəkdə uşaqlarına qarşı zorakılıq və laqeyd münasibət göstərəcək ailələri bəri başdan dəyişdirmək deməkdir. İctimai maarifləndirmə tədbirləri, ailəyə dəstək proqramları, sosial çarxlar və posterlər bu mübarizə üsullarına daxildir. Cəza sistemi də ədalətin göstəricisidir, bu cinayətə görə həbs edilən şəxs ağırlaşdırılmış cəza ilə cəzalandırılmalıdır ki, zorakılığa meyilliyi olan şəxslər üçün dərs olsun.

Övladlarına qarşı zorakılıq və laqeyd münasibət göstərmiş ailələrə, gənc ailələrə, övladlarının diqqətə ehtiyacı olan ailələrə mütəmadi nəzarət şərtdir. Dövlət, uşaqların təhlükəsiz şəraitdə yaşadığından əmin olmalı, ona tək olmadığını hiss etdirməlidir. Azərbaycanda bu məqsədlə Uşaq Qaynar Xətti yaradılıb, ailəsində özünü təklənmiş hiss edən, zorakılığa məruz qalan, ətrafından zorakılıq görən uşaqlar üçün fəaliyyət göstərən 116-111 nömrəsi var, istismara, zorakılığa məruz qalan uşaqlar ora zəng edərək problemlərini deyə, psixoloji dəstək ala bilirlər.

Uşaq Qaynar Xətti, 2009-cu ildə Ümidli Gələcək Gənclər Təşkilatı tərəfindən Uşaq Hüquqları üzrə QHT alyansının proqramı çərçivəsində Azercell Telecom Şirkəti, UNİCEF-in Azərbaycandakı ofisi, Uşaqların Xilası təşkilatı, Təhsil Nazirliyi və Dünyaya Baxış təşkilatının dəstəyi ilə yaradılıb.



## Uşaqlar bizə əmanət verilib

Uşaqlar böyüklərin qayğısına və müdafiəsinə ehtiyac duyurlar və heç bir şəkildə zorakılığa məruz qalmamalıdırlar. Uşağın edəcəyi heç bir hərəkət onun döyülməyə və ya zorakılığa məruz qalmağına haqq qazandırmaz. Uşaqlar zorakılıqdan dərs almırlar, əksinə, mütəmadi zorakılıq onların həyat tərzinə çevrilə bilər. Unutmayın, uşaqlar valideynlərini təqlid edərək doğru ilə yanlışı ayırd edirlər. Bir çox böyüklər bunu intizam üsulu hesab etsə də, zorakılıq uşağa zərərlidir və ciddi fəsadlar yarada bilər.

Uşaq istisması və cinsi zorakılıq mövzularında biliklərimizi artırmaqla uşaqlarımızı qorumaq bizim ən birinci vəzifəmiz olmalıdır. Uşaqlarsız bir gələcək olmayacaq, o gələcəyin sağlam təməllər üzərində qurulması üçün isə sağlam ruhlu uşaqlara ehtiyac var. Əgər kritik anlarda övladınızla necə davranacağınızı bilmirsinizsə bunun üçün çox sayda vəsait, peşəkar məsləhəti var. Öyrənmək heç vaxt gec deyil.

***Lalə Mehralı***

---

# Gürcü politoloq: "ABŞ Qafqazda sülhün olmasını istəmir"

"Bu gün bəzi Qərb dövlətləri ilə yanaşı, ABŞ-ın regiona yersiz müdaxilələri müşahidə olunur. Birləşmiş Ştatlar Cənubi Qafqaz ölkələrinə yardım edir. Lakin Azərbaycan bu yardımı ala bilmir. ABŞ-ın Azərbaycana niyə humanitar və texniki yardımlar göstərməkdən imtina etməsi, yəni, məlum 907-ci düzəlişi qüvvədə saxlaması gürcü ictimaiyyətində də narahatlıq və sual doğurur. Düşünürəm ki, bunun yalnız bir cavabı var. ABŞ sülh içində olan Qafqazı öz oyun və məqsədlərinə alət edə bilməyəcəyindən narahatdır. Ona görə də ikili oyun oynayır, Qafqazda vəziyyəti yenidən gərginləşdirmək istəyir."



Bu sözləri açıqlamasında Gürcüstan Strateji Planlaşdırma Mərkəzinin rəhbəri, politoloq Levan Mamaladze söyləyib. Onun sözlərinə görə, bəzi qüvvələr, o cümlədən ABŞ Qafqazda münaqişə olmağını istəyirlər ki, bundan istifadə edib öz məqsədlərinə çatsınlar. Qarabağ məsələsi öz həllini tam tapdığından Qafqaza müdaxilə üçün səbəb qalmır.

Siyasətçi deyib: "Qafqazda sülhün olması Azərbaycan, Gürcüstan və Ermənistan üçün çox vacibdir. Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması Qafqazda sülhün təsdiq olunması deməkdir. ABŞ-ın qəbul etdiyi qərar isə sülhə qarşı olan qərardır. Onların bu qərarını başa düşmək olmur. Ona görə ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. Belə olan halda sual yaranır, Azərbaycan ərazi bütövlüyünü bərpa etdikdən sonra niyə belə qərar qəbul edirlər?".

Oxşar addımların Gürcüstan üçün də atıldığını diqqətə çatdıran Levan Mamaladze əlavə edib: "ABŞ 2024-cü ilin prezident seçkilərində Gürcüstana daimi müşahidə missiyasını göndərmək istəyir. Daimi müşahidə missiyası nə deməkdir axı? Bu hərəkətlərdə biz onların məkrli planlarının görə bilərik. ABŞ Qafqazda təsir gücünə malik olmaq, sülhə maneə yaratmaq üçün hər vəchlə çalışır. Ona görə də bu, tək Gürcüstan və Azərbaycan üçün yox, həm də Ermənistan üçün bir siqnal olmalıdır. Bu səbəbdən sülh müqaviləsi tez bir zamanda imzalanmalıdır ki, xalqların rifahına zidd addımların atılmasına, sülhün, sabitliyin pozulmasına heç kim şərait yarada bilməsin".

Gürcü politoloq sonda əlavə edib: "Prezident İlham Əliyevin siyasəti bir daha sübut etdi ki, ərazi bütövlüyü necə bərpa olunur. Təbii ki, bu siyasət həm bizə, həm də Ermənistana nümunə olmalıdır".

# Azərbaycan -Türkiyə:

## maraqlara deyil, qardaşlığa əsaslanan birlik!

Bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu, sərhəd tanımayan qardaşlıq birliyidir. Və hər iki qardaş dövlətlərin liderləri və xalq bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq əlaqələrinin təsdiqidir və bu, bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər. Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.



**PREZİDENT İLHAM ƏLİYEV: "Siz də, Mən də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan "Bir millət, iki dövlət" kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq"**

**TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN: "Səlahiyyətlərimin icrasına başlama mərasimində İlham qardaşımın xanımı ilə birlikdə iştirakı dünyaya və Türkiyəyə bir mesajdır"**

### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV: ”TÜRKİYƏ BURADA YOXSA DA, MƏN BURADAYAM VƏ SİZİN CAVABINIZI VERƏCƏYƏM”, SÖYLƏMƏKLƏ DÜNYANI MAT QOYMUŞDU, EYNİ ZAMANDA BÜTÜN TÜRK DÜNYASININ ÜRƏYİNİ FƏTH ETMİŞDİ

Atılan qəti addımlar Azərbaycan-Türkiyə qardaşlığı və əməkdaşlığının bütün sahələr üzrə davamlı inkişaf etdirilməsinə nail olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlərarası səviyyədə olduğu kimi, şəxsi münasibətlərdə də əsl qardaşlıq nümayiş etdirmələri olduqca dəyərlidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq tədbirlərdə həmişə qardaş ölkəyə birmənalı dəstək verməyin əsl örnəyini nümayiş etdirib. İllər olaraq Ermənistanın qatil rəhbəri Praqada keçirilən, Türkiyənin təmsil olunmadığı ”Şərq Tərəfdaşlığı” sammitində ”dərə xəlvət, tülkü bəy” yanaşmasından çıxış edərək qardaş ölkənin ünvanına saxta ittihamlar, hədyanlar söyləyəndə Azərbaycan Prezidenti İlham Əliyev ”Türkiyə burada yoxsa da, mən buradayam və sizin cavabınızı verəcəyəm”, söyləməklə dünyanı mat qoymuşdu, eyni zamanda bütün Türk dünyasının ürəyini fəth etmişdi. Eyni zamanda, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ”Bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır”, ”Türkiyə bütün imkanları ilə Azərbaycanın yanında olacaq”, mövqeyi ilə Türk birliyi mesajını verdi Prezident İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın BMT Baş Assambleyasında çıxışı zamanı Azərbaycana verdiyi dəstəyə görə dövlət başçısı sosial şəbəkədə təşəkkürünü bildirib: ”Əziz qardaşım, BMT Baş Assambleyasında çıxışınız zamanı Azərbaycana verdiyiniz dəstəyə görə təşəkkür edirəm. Hər zaman olduğu kimi, bu gün də qardaş Türkiyə Azərbaycanın yanındadır və haqq işimizdə bizə dəstək verir. Azərbaycan və Türkiyə xoş günlərdə də, kədərli anlarda da daim bir yerdədirlər. Beynəlxalq təşkilatlarda həmişə bir-birimizin haqlı mövqeyini müdafiə edirik. Şuşa bəyannaməsi ilə münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Siz də, mən də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qardaşlığımızın rəmzi olan ”Bir millət, iki dövlət” kəlamını daim yada salaraq Azərbaycan və Türkiyə arasında olan sarsılmaz birliyi yeni zirvələrə daşıyırıq”.

### PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞAN: ”ERMƏNİSTAN QARABAĞ MÜHARİBƏSİNDƏ DƏRSİNİ ALDI”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 15-də Böyük Millət Məclisində hakim Ədalət və İnkişaf Partiyasının parlamentdəki fraksiyasının genişləndirilmiş toplantısında çıxış edərkən söyləyib: ”Ermənistan illərlə Türkiyənin torpaqları ilə bağlı xəyallar qurub, İkinci Qarabağ müharibəsində dərsini alıb, yerində oturub”.

Türkiyə prezidenti qeyd edib ki, türk milləti olaraq bu torpaqlarda azad, namuslu, dinc yaşamaq istəyiriksə, güclü olmalıyıq: ”Siyasi, iqtisadi, ictimai quruluşu, hərbi gücü, təhlükəsizliyi ilə hər sahədə güclü olmasaq, bizə bu torpaqlarda yaşamağa imkan verməzlər”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, həmçinin, Qəzza zolağındakı vəziyyəti Dağlıq Qarabağ ətrafında baş verənlərlə müqayisə edib. Türkiyə dövlət başçısı bildirib ki, Ermənistan Qarabağ münaqişəsindən dərs aldığı kimi İsrail də Yaxın Şərqdəki münaqişə nəticəsində dərsini alacaq: ”İsrail də məyus olacaq. Nə qədər ki, biz 85 milyon insan birik, bizi heç kim sındıra bilməz. Ona görə də güclü və müasir ordu bizim üçün zərurətdir”.

Bütün bu qardaşlıq münasibəti ulu öndər Heydər Əliyevin söylədiyi ”Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir” və böyük öndər Mustafa Kamal Atatürkün ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi. Və bu gün bu iki güclü Liderlərin şad gündə, dar gündə bir-birinin yanında olması bir daha dünyaya nümayiş etdirdi ki, Azərbaycan və Türkiyə bundan sonra da bir olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Və 2021-ci il 15 iyun tarixində Şuşada imzalanmış





### 102 İL GECİKMİŞ BİR SƏNƏDİ - ”ŞUŞA BƏYANNAMƏ”Sİ İKİ QARDAŞ ÖLKƏNİN MÜNASİBƏTLƏRİNİ YENİ MÜSTƏVİYƏ ÇIXARAN TARİXİ VƏ SİYASİ ÖNƏM KƏSB EDƏN MÜTTƏFİQLİK HAQQINDA HÜQUQİ SƏNƏD OLDU

15 iyun, 2021-ci il - Türkiyə-Azərbaycan, ”Bir millət, iki dövlət”i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq iki güclü liderlərin - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin işğaldan azad olunmuş Qarabağımızın baş tacı olan Şuşada Türkiyə və Azərbaycan, həmçinin 102 il gecikmiş bir sənədi - Müttəfiqlik haqqında Şuşa Bəyannaməsini imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının yaranmasının 100-cü ildönümü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğana ünvanlandığı təbrik məktubunda bildirir ki, biz Şuşa Bəyannaməsi ilə müttəfiqlik səviyyəsinə yüksələn Azərbaycan-Türkiyə əlaqələrini bundan sonra da bütün sahələrdə gücləndirmək əzmindəyik. Ortaq mənəvi dəyərlər, dini-mədəni köklər kimi sarsılmaz təməllər üzərində qurulmuş dövlətlərarası münasibətlərimiz həm də bölgədə sabitliyin, əmin-amanlığın, inkişafın və təhlükəsizliyin zaminidir: ”Əminəm ki, ən böyük sərvətimiz olan Azərbaycan-Türkiyə qardaşlığını və birliyini əbədiyyətədək yaşatmaq və daha da möhkəmləndirmək, hərtərəfli əməkdaşlığımızı inkişaf etdirmək yolunda üzərimizə düşən şərəfli missiyamızı bundan sonra da birgə və uğurla yerinə yetirməyə davam edəcəyik”.

Məhz bu əsrlərə bağlı olan bu birlik, dostluq və qardaşlıq münasibətlərin növbəti təzahürü isə, cari ilin iyunun 12-də Türkiyənin 13-cü Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğanın ilk səfərini Şimali Kipr Cümhuriyyətinin ardınca Azərbaycana gerçəkləşdirmə təqvimi, ilk növbədə iki qardaş ölkə arasında münasibətlərin ən yüksək səviyyədə olması, bir millətin iki dövlətin - Azərbaycanla Türkiyənin sarsılmaz birliyinin, bu münasibətlərin maraqlara deyil, dəyərlərə əsaslanmasının dünyaya bir mesajı olmaqla, öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına güclü ölkənin güclü liderlərinin bu dəyərlərin gücü ilə çıxmaları və onlara öz yerlərini göstərmələridir. Və bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Bəli, bu gün Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə Azərbaycan - Türkiyə dostluğunun, qardaşlığının qarşısını ala bilməz. İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubu Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs bundan yalnız faydalanacaq. Çünki Azərbaycan və Türkiyə bu gün regionda yeni bir reallıq yaradır. Qarabağ savaşı Böyük Qələbəmizlə başa çatandan sonra Cənubi Qafqaz çox ciddi və mühüm bir başlanğıca qədəm qoyur. O başlanğıcın adı Sülhdür! Sabitlik və İnkişafdır!

Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin ”Bir millət, iki dövlət” kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Bu günə qədər bu iki dövlət qoşa qanad kimi, birlikdə addımlayıb, birlikdə bir çox möhtəşəm qələbələrə, nailiyyətlərə, uğurlara imza atıb, bundan sonra da birlikdə addımlayaraq, növbəti parlaq qələbələrə, zəfərlərə imza atacaqlar və dövlət başçımızın dediyi kimi: ”Bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək!”.

***RƏFİQƏ KAMALQIZI***

# ABŞ-ın riyakarlığı qərəzli iddialar üzərində qurulub



Azərbaycanın düzgün və məqsədyönlü siyasəti böyük və möhtəşəm uğurların əldə olunmasına imkanlar yaradır. Ötən 20 il ərzində Azərbaycanın valyuta ehtiyatları 40 dəfə artmışdır. Ölkə iqtisadiyatına qoyulan investisiyanın həcmi də hər il artmaqdadır. Ötən 20 il ərzində Bakı - Tbilisi - Ceyhan, Bakı - Supsa, Bakı - Novorossiysk neft və Bakı - Tbilisi - Ərzurum neft-qaz sektoruna 30 milyard ABŞ dollarından artıq sərmayə cəlb edilmiş, geniş ixrac infrastrukturu yaradılmış və ölkəmiz regionun ən mühüm tranzit mərkəzinə çevrilmişdir. İqtisadi, sosial uğurlar siyasi, diplomatik, hərbi qələbələrlə əvəzlənir ki, bu da Azərbaycanın dünya miqyasında yerinin və rolunun daha da möhkəmlənməsinə təkan verir. Azərbaycanın Yenilməz Sərkərdəsi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Müzəffər ordumuzun 30 il işğal altında olmuş torpaqlarımızı erməni qəsbkarlarından təmizləməsi ölkəmizin gücünə güc qatdı. Artıq birmənalı şəkildə demək olar ki, Azərbaycan dünyada barmaqla sayılan güclü və qüdrətli dövlətlərdəndir. Təbii ki, əldə olunan uğurları daxili qüvvələr kimi xarici məkrli dairələrdə həzm edə bilmirlər. Xarici ölkələrdə kök salmış məkrli qüvvələr hər vəchlə Azərbaycanın uğurlarına kölgə salmağa çalışırlar. Bu səbəbdən də zəif və gərəksiz qurum imici qazanmış Ermənistana siyasi, hərbi, maliyyə dəstəyi göstərməklə Azərbaycanı təhdid etməyə çalışırlar. Başda Fransa prezidenti E.Makronun başçılıq etdiyi Avropa İttifaqına üzv dövlətləri Ermənistana silah və maliyyə dəstəyi göstərir. Bu arada Amerika Birləşmiş Ştatları da Ermənistanın yanında olduğunu nümayiş etdirmək üçün maliyyə kisəsinin ağzını açdığını nümayiş etdirir. Hətta bəzi məqamlarda açıq şəkildə Ermənistanı dəstəklədiyini göstərməyə çalışır. Bütün bunlar ABŞ-ın özünə rəqib gördüyü dövlətlərə qarşı qərəzli münasibətinin göstəricisidir.

### ABŞ, ziddiyyətli və ikili standartlar siyasətinə önəm verən dövlətdir

ABŞ heç zaman terrora qarşı mübarizədə əsaslı və birmənalı mövqe göstərmir. ABŞ Dövlət Departamenti terrora münasibətdə bir cür yanaşma nümayiş etdirir, Nümayəndələr Palatası başqa cür, Konqres və Pentaqon isə digərlərindən fərqli nümunə ortaya qoyurlar. Yəni, hərəsi sərf edən tərəfi seçir. Ola bilir ki, Dövlət Departamenti terrorçu hesab etdiyi qruplaşmanı Pentaqon sivil dünyanın ”sanballı təşkilatı” hesab etsin. Bu baxımdan, ABŞ, hətta beynəlxalq terrorizmə qarşı mübarizədə də heç vaxt səmimi olmayıb. Maraqları prizmasında baş verənləri izləyib. Deyək ki, ”PKK” və ”ASALA” terror təşkilatını əksər dövlətlər insanlıq və bəşəriyyət üçün təhlükə mənbəyi hesab edirsə, ABŞ başqa cür düşünür və addımlar atır. Xatırlatmaq lazımdır ki, ABŞ-ın dövlət katibi olmuş Kondoliza Rays Türkiyədə səfərdə olarkən ona jurnalistlər tərəfindən ünvanlanan suallar arasında ”ABŞ ”PKK”-ya qarşı mübarizə istiqamətində hansı addımları atmağı düşünür” sualı da vardı. O zaman Kondoliza Rays ənənəvi cavabı vermişdir: ””PKK”-ya qarşı mübarizə aparmaq, hələlik, ABŞ-ın planlarına daxil deyil”. Lakin elə ki, 11 sentyabr hadisələr baş verdi, ABŞ Əl-Qaidəni, xüsusilə də Bin Ladeni məhv etmək üçün terrorizmə qarşı beynəlxalq koalisiya yaradıb fəaliyyətə başladı. Azərbaycanda dəfələrlə ABŞ-ın haqsız və ədalətsiz münasibəti ilə qarşılaşıb. Baxmayaraq ki, beynəlxalq terrorizmə qarşı mübarizədə ən fəal tərəflərdən biri Azərbaycan olub. Lakin 30 illik erməni işğalı zamanı koalisiyanın üzvləri, o cümlədən ABŞ Azərbaycana dəstək göstərmədi. ABŞ-ın vaxtilə Qarabağdakı separatçılara mina təmizləmə adı altında ildə 10 milyon dollar vəsait ayırması, separatçıların ABŞ-da yardım kampaniyaları keçirib pul yığmalarına şərait yaradılması, rejimin bu ölkədə nümayəndəliyinin fəaliyyətinə göz yumulması. Azərbaycan xalqı uzun illər bu pisliyi, riyakarlığı görüb, bundan hiddətlənib və heç vaxt unutmayacaq. Bir dəfə də olsun Konqresdə Ermənistanın Azərbaycana qarşı terrorçu əməllərini, işğalçı siyasəti tənqid edən məsələ müzakirə etmədi. Adi görünən məsələ ilə bağlı çıxış etməkdən də imtina edib. Yəni, Ermənistan Azərbaycanın torpaqlarını işğal edib- deyə bəyanatlarla çıxış etməkdən çəkinib. Əksinə, 1992-ci ildə Ermənistan ardıcıl şəkildə Azərbaycan torpaqlarını işğal edən zaman ABŞ azadlığa dəstək aktına 907-ci əlavəni qəbul etdi. Bu qondarma əlavə bu gün də qüvvədədir. Sadəcə olaraq, ABŞ prezidentləri onun hüquqi qüvvəsini hər il dayandırırlar.

### Konqresinin Nümayəndələr Palatasında ”Dağlıq Qarabağın gələcəyi” mövzusunda keçirilmiş dinləmələr ABŞ-ın məkrli siyasətinin göstəricisidir

Ötən on illər ərzində olduğu kimi, bu gün də ABŞ Azərbaycana qarşı məkrli və qərəzli siyasətini davam etdirir. Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında ”Dağlıq Qarabağın gələcəyi” mövzusunda keçirilmiş dinləmələr bunun daha bir nümunəsi sayıla bilər. Söz yox ki, dinləmələrin keçirilməsinə ən çox dəstək verən ABŞ-dakı erməni lobbisi olub. Bu da onu deyə əsas verir ki, dünyanın aparıcı dövləti kimi özünü təqdim etməyə çalışan ABŞ, əslində, Kardaşyan kimi fahişə modellərin əlində alət olub. Nəzərə almaq lazımdır ki, qondarma tədbirdən öncə tədbirin təşkilatçısı Konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin Ermənistanın ABŞ-dakı səfiri Lilit Makuns ilə görüşüb. Görüşün 5 saata qədər davam etməsi onu təsdiq edir ki, tərəflər Azərbaycana qarşı necə şər və böhtanlar səsləndirmək, iddialar və ittihamlar irəli sürmək məsələlərini geniş və əhatə şəkildə müzakirə edib, razılaşma əldə ediblər. Dinləmələr gözlənildiyi kimi erməni lobbisinin tələblərinə uyğun keçirilib. Azərbaycanın Qarabağda əldə etdiyi qələbəsinə, insanlarımızın öz yurd-yuvalarına qayıdışına qısqanclıqla yanaşmalar nümayiş etdirilib. Konqresdə çıxış edənlər bildiriblər ki, ABŞ Azərbaycana yardım etməyəcək. Ancaq bu piylənmiş başlar anlamırlar ki, Azərbaycanın heç bir ölkənin yardımına ehtiyacı yoxdur. Ölkəmiz dəfələrlə təbii fəlakətlərdən əziyyət çəkmiş dövlətlərə maddi yardımlar göstərib. Pandemiya dövründə Ümumdünya Səhiyyə Təşkilatlarına və ayrı-ayrı dövlətlərə göstərdiyi maliyyə yardımları bu gün də dünya mətbuatında xeyirxahlıq nümunəsi kimi qeyd olunur.

### ABŞ insanlıq üçün təhlükə yarada biləcək dövlətə çevrilir

Yaxşı olardı ki, ABŞ böyük və möhtəşəm uğurlara imza atmaqla demokratik dünyanın əsas aparıcı dövlətlərdən biri olduğunu Azərbaycanın daxili işlərinə burnunu soxmaqdansa, daxili problemlərinin həllinə çalışsın. Konqres ABŞ-ın öz günbəgün artan dövlət borcundan başlayaraq irqi ayrıseçkilik, polis zorakılığı, kriminalın baş alıb getməsi və digər çoxsaylı daxili problemlərlə məşğul olsaydı, daha düzgün olardı (problemləri açmaq). Bu gün dünyanın müxtəlif bölgələrində baş verən siyasi kataklizmlər, müharibələr, dövlət çevrilişləri, vətəndaş müharibələrində ABŞ-ın iştirakı və rolu var. Elə bir münaqişəli dövlət yoxdur ki, orada Fransa kimi ABŞ-ın da əli olmasın. Liviya, Suriya, İraqın, Əfqanıstanın düşdüyü vəziyyət hər şey sübut edir. 20 il Əfqanıstanı işğal altında saxlayan ABŞ bu ölkədə bir dənə də olsun obyekt tikmədi, yol salmadı, amma bu illər ərzində bütün ölkəni narkotik plantasiyasına çevirdi. Son məlumatlara görə, ABŞ Əfqanıstanı tərk etdikdən sonra bu ölkədə narkotik plantasiyalarının həcmi 20 dəfədən çox azalıb. Bu gün Qəzzada baş verənlərin ssenari müəllifi də Vaşinqtondur. Rusiya-Ukrayna qarşıdurmasını alovlandıran və bu alovu sönməyə qoymayan məhz Amerikadır.

Ukraynanın düşdüyü vəziyyət, xüsusilə də, Ukraynanın bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmasının günahkarı ABŞ-dır. ABŞ-ın Latın Amerikasında, Afrika qitəsində törətdiyi cinayətlər unudulmayıb. Təbii ki, heç zaman törətdiyi soyqırımı aktları yaddan çıxmayacaq. Bu baxımdandır ki, Latın Amerikası ölkələrində Amerikaya qarşı kəskin mənfi münasibət mövcuddur. Postsovet məkanı, Cənubi Qafqazda baş vermiş və hələ də davam edən siyasi kataklizmlərin ən böyük səbəbkarı da məhz ABŞ-dır. 2000-ci illərin əvvəllərindən başlanan rəngli inqilablar ssenarisinin Azərbaycanda da gerçəkləşdirmək cəhdləri göstərildi. Lakin xalqın Ulu Öndər Heydər Əliyevin ətrafında sıx birləşməsi və xarici düşmənlərə qarşı birlik nümayiş etdirməsi ABŞ-ın xam xəyallarını məhv etdi. Bununla da ABŞ Azərbaycandan emisarlarını geri çağırmaq məcburiyyətində qaldı. İfşa olunmasının acısını hələ də yaşayan ABŞ-ın qaranlıq dairələri vaxtaşırı ölkəmizə qarşı şər və böhtan kampaniyasını davam etdirir. Lakin anlamalıdırlar ki, heç bir ölkə, o cümlədən, erməni lobbisinin əlində alətə çevrilən ABŞ Azərbaycana təzyiq dili ilə danışa bilməz. Başa düşüb dərk etməlidirlər ki, Azərbaycan olmadan nə Cənubi Qafqazda, nə də Mərkəzi Asiyada siyasəti olmayacaq. Azərbaycan xalqının birliyi, dünyanın bəzi dost dövlətlərinin dəstəyi ilə Azərbaycana diktə etmək istəyənlərə yeri göstəriləcək.

**İ.ƏLİYEV**

# ”Gənclərimiz 17 Noyabr tarixini vərəqləyərkən qürur hissi keçirirlər”



TARİXÇİ ŞƏRH ETDİ

“Azərbaycan xalqının respublikanın baş meydanı Azadlıq Meydanına axışaraq haqqını tələb etməsi bütün ittifaqda rezonans doğuran hadisə idi”. Bu barədə tarixçi Firdovsiyyə Əhmədova ”Milli Dirçəliş Günü” ilə bağlı SİA-ya açıqlamasında bildirib. Onun sözlərinə görə XX əsrin sonlarında erməni separatizminə qarşı mübarizə geniş bir xalq hərəkatına çevrilib: ”O zaman Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından 70 il ötürdü. Azadlıq Meydanına cümhuriyyətin üçrəngli bayrağının gətirilməsi Azərbaycan xalqının milli dirçəlişindən xəbər verirdi. Xalqı bu addımı atmağa SSRİ rəhbərliyinin ikili siyasəti, təcavüzkarı dəstəkləməsi, təcavüzə məruz qalan tərəfi isə haqsız çıxarması təşviq edirdi. Həmin dövrdə Qarabağın dağlıq hissəsi demək olar ki, Azərbaycana nəzarətindən çıxmışdı və üstəlik mərkəzi hakimiyyət tərəfindən Qarabağa təyin olunmuş Volski ermənipərəst siyasət yürüdürdü. Topxana meşəsində ekoloji cəhətdən zərərli sənaye obyektinin tikilməyə başlanması bütün Azərbaycan xalqını ayağa qaldırmışdı. Azərbaycan xalqı öz hüquqlarını, Ermənistanın təcavüzünün dayandırılmasını, Qarabağın dağlıq hissəsində anti-Azərbaycan siyasətinin aparılmasının qarşısının alınmasını tələb edirdi. Məhz belə siyasət yeridən Volski komitəsinin ləğvi istənilirdi. Ermənistana qarşı iqtisadi sanksiyaların tətbiqi kimi tələblər irəli sürülmüşdü”.

F.Əhmədova qeyd edib ki, həmin dövrdə ilk dəfə olaraq ”Suverenlik”, ”Azadlıq” kimi şüarlar səsləndirilmişdi: ”17 noyabr 1988-ci ildən başlanan bu xalq hərəkatı Azərbaycan xalqının mütəşəkkil bir qüvvə olduğunu ortaya qoydu, milli dirçəlişə böyük bir vüsət verdi. Məhz bu dövrdən başlayaraq ardıcıl şəkildə Azərbaycan xalqı sonrakı təcavüzlərə, soyqırımına, Ermənistan ərazisindən azərbaycanlıların qovulmasına qarşı apardığı mübarizə də daxil olmaqla mübarizəni davam etdirdi. Azərbaycan xalqı bir gün də olsun ümidini itirməmişdi ki, ərazilərimizdə Azərbaycan hakimiyyəti tam bərqərar olacaq.

2023-cü ildə ”Milli Dirçəliş Günü”nün qeyd olunması xüsusi bir ovqat içərisində həyata keçirilir. Azərbaycan Cümhuriyyətinin 105-ci, ”Milli Dirçəliş Hərəkatı”nın 35-ci ilində sonuncu antiterror əməliyyatı ilə biz ərazilərimiz üzərində tam nəzarətə nail olduq. Azərbaycan xalqı bütün dünyaya əsarətlə, təcavüzlə barışmamağın bir nümunəsini göstərdi. Xalqımız apardığı savaşda heç bir əhaliyə qarşı zorakılıq aktı həyata keçirmədi. Öz ərazisində tolerant ənənələrə sadiqliyini nümayiş etdirdi. Qalib Azərbaycan məğlub Ermənistan dövlətinə, ərazisində yaşayan erməni sakinlərinə qarşı sülhpərvər qonşuluq siyasətini sübut etdi”.

Tarixçi sonda bildirib ki, qonşu respublika ilə sülhpərvər siyasət tərəfdarı olan Azərbaycan təkcə öz maraqları üçün deyil, regionda sülh və sabitliyin bərqərar olması üçün səy göstərir: ”Azərbaycan beynəlxalq aləmdə müstəmləkə siyasətinə, əsarətə, təcavüzə qarşı mübarizə aparan xalqların yanında olduğunu beynəlxalq səviyyədə bəyan edir. Bu baxımdan dövlətimizin paytaxtı Bakı şəhəri beynəlxalq tədbirlərə ev sahibliyi edir. İstər BMT istərsə də ”Qoşulmama Hərəkatı” çərçivəsində Azərbaycanın atdığı addımlar onların rəhbərləri tərəfindən təqdir edilir. Azərbaycan Milli Oyanış Hərəkatının üzvləri ölkənin bütün bölgələrini əhatə edirdi. 1988-ci ildə bir yumruq olan Azərbaycan artıq 2020-ci ildə 2023-cü ildə ”Dəmir Yumruq” və antiterror əməliyyatları ilə öz sözünü dedi. Azərbaycan dövlətçiliyində 17 noyabr önəmli bir tarixdir, bu tarixi vərəqləyərkən yalnız qürur hissi keçirirlər”.

**Rəşid Qarayev**

# Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycanın memarıdır

## YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib






**“Heydər Əliyev İli” çərçivəsində noyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib. Tədbirdə partiyanın Ağdaş, Mingəçevir, Kürdəmir, Göyçay, Ucar, Yevlax və Zərdab rayonlarından fəal gənclər iştirak ediblər.**

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub. Ağdaş rayon Heydər Əliyev Mərkəzində baş tutan tədbirdə Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Ağdaş rayon təşkilatının sədri Əlişah Rəcəbov 2023-cü ilin ölkəmizdə ”Heydər Əliyev İli” elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini bildirib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini söyləyən Əlişah Rəcəbov dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacibliyindən danışıb.

YAP Veteranlar Şurasının üzvü Zərifə Quliyeva Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədilik qazandığını vurğulayıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə yorulmaz fəaliyyət göstərərək qəlblərdə daim sevgi, xatirələrdə əbədiyaşarlıq qazanıb. Ölkəmizdə gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir.

YAP Veteranlar Şurasının üzvü, məşhur ”91-lər”dən olan Tahir Məmmədov vurğulayıb ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının yeni nəslə çatdırılmasıdır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. O qeyd edib ki, Ulu Öndər hakimiyyətdə olduğu dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib.





Daha sonra gənclərin sualları cavablandırılıb. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə yekunlaşıb.

## Sürət zəif, qiymət isə baha - ÇIXIŞ YOLU NƏDİR?

### *QURUM RƏSMİSİ DANIŞDI*



“İnternet bazarının 65 faizinə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) tabeliyində olan qurumlar nəzarət edir. Bunlar ”Baktelecom”, ”Aztelekom”, ”Azeurotel” , ”AzDataCom” və ”Azercell”dir. Ekspert əlavə edir ki, bu qurumların satdığı internet kifayət qədər bahadır. ”NRYTN haqsız rəqabət aparır. Özəl provayderlər sürətli internet xidməti çəkmək üçün dövlətə məxsus rabitə resurslarından istifadə edə bilmirlər. NRYTN tabeliyində olan dövlət provaydreləri isə bu resurslardan sərbəst istifadə edirlər”. Bu sözləri SİA-ya Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib.

Ekspert deyir ki, özəl provayderlərin qiymət endiriminə NRYTN tabeliyində olan dövlət provayderləri mane olur: ”İnternet bazarının 65 faizinə nəzarət edən dövlət provayderləri ”DeltaTelecom”un 70 faiz qiymət endirimini boykot edib. Müşahidələr və monitorinqlər göstərir ki provayderlər interneti topdan alanda öz müştərilərinin sayına və tələbatına uyğun həcmdə deyil, daha az trafik alırlar”.

***Ləman Sərraf***



## Uşaqlar 3, böyüklər 7 manata...

**MƏTANƏT**

**Məktəblilərin payız tətili başlandığından onların asudə vaxtını mənalı keçirmək üçün valideynlər xeyli düşünməli olurlar: necə edək ki, tətil günlərindən səmərəli istifadə edək, uşaqlara ucuz qiymətə başa gələn yaddaqalan günlər bəxş edə bilək.**

Tətilin ilk günü uşaqların asudə vaxtlarının təşkili ilə bağlı eşitdiklərim xoş olmadığı üçün təbii ki, ona münasibətim də yaxşı olmadı. Deməli, bir qrup valideyn qərara gəlir ki, uşaqlarını sinif yoldaşı ilə birlikdə və sinif rəhbərinin müşayiəti ilə Milli Xalça Muzeyinə aparsınlar. Bununla əlaqədar olaraq muzeylə əlaqə saxlayırlar və məlum olur ki, muzeyə giriş uşaqlar üçün 3, böyüklər üçün 7 manatdır. Valideynlər də nə etsinlər, uşaqlara əvvəlcədən muzeyə aparacaqlarına söz verdikləri üçün getməli olurlar. Muzeyin qarşısında görüşürlər, uşaqları müəllimə təhvil verirlər, özləri isə bayırda gözləyir ki, uşaqlar çıxanda evə aparsınlar. Qeyd edək ki, uşaqları muzeyə gətirən müəllim üçün ödəniş yoxdur.

Sözün həqiqi mənasında, eşitdiklərimdən çox sarsıldım. Axı muzeylər bizim milli sərvətimizdir. Birincisi, öz sərvətimizdən istifadə nə üçün ödənişli olmalıdır? Yaxşı, ödənişlidirsə, nə üçün bu qədər baha qiymətədir?

Deməli, bir valideyn bir uşaqla muzeyə gedirsə, bu, 10 manata başa gəlir. 2-3 uşaqla isə daha baha qiymətə. Elə bu qiymətlərin fonunda muzeyə turistlərin ödənişi ilə də maraqlandıq. Məlum oldu ki, turistlər üçün ödəniş 10 manatdır. Böyüklər və turistlər üçün tur paketlər də var ki, 10 nəfərlik tur paket böyüklər üçün nəfərə 5, turistlər üçün 7 manatdan hesablanır. Muzeydə bələdçi xidməti Azərbaycan dili də daxil olmaqla ərəb, ingilis və rus dilləri üçün ödənişlidir, yəni 12 manat, 10 nəfərdən artıq tamaşaçı üçün 15 AZN. Maraqlıdır, məlumat 1 nəfər üçün verilir, ya 10 nəfər üçün, bu eyni deyilmi? Bəs qiymət nə üçün 12 manatdan 15 manata qalxır?.. Bir də ki, mən biləni muzeylərdə bələdçi ştatı var ki, bu vəzifəni həyata keçirən şəxs əmək haqqı alır.

O da maraqlıdır ki, turist gəlib bizim ölkəmizdə muzeyə 10 manat ödənişlə tamaşa edir, biz yerli əhali isə 7 manat? Yaxşı, biz tur paketdən istifadə etmək üçün necə, 15 gün əvvəldən adam toplamalıyıq ki, muzeyə baxışımız ucuz başa gəlsin?

Bu məsələdə maraqlı nüanslar var. Uşaqlar və tələbələr üçün tur paket yoxdur. Hansı ki, kollektiv şəkildə muzeyə gedəcək olan məhz məktəbli və tələbələrdir. Uşaq və tələbələrimizi xalqın milli dəyərləri ilə ödənişli əsaslarla tanış ediriksə, bəs muzeyə getməyə heç bir imkanı olmayan minlərlə uşağın, tələbənin aqibəti necə olacaq?

Belə nümunələrlə xarici ölkələrdə də rastlaşmaq olur. Lakin turistlərlə yerli əhali arasında qiymət olduqca fərqlidir. Yəni yerli əhaliyə sərf edəcək dərəcədədir.

Bu gün muzeyin qarşısında dayanıb övladını gözləyən ondan artıq valideyn onlarla birlikdə muzeydə olmasını çox arzu edərdi. Lakin 7 manat ödəniş etmək hər kəsin imkanı daxilində deyil. Axı hələ tətil yeni başlayıb. Uşaqları hara aparsan, bundan da baha qiymətlər səni gözləyir. Valideyn də uşaqlarla bərabər asudə vaxt keçirmək istəsə, bu, ailə büdcəsində xeyli vəsaitin itirilməsi deməkdir. Odur ki, muzeylərimizin qiymətlərə yenidən baxmasına ehtiyac var.

Məncə uşaq və tələbələrin muzeylərə girişi ödənişsiz, böyüklər üçün isə 3 manat olmalıdır. Turistlər üçünsə elə müvafiq qiymət seçmək lazımdır ki, ölkəmizdən gedəndən sonra növbəti illər üçün də buranı seçməyə qərar verə bilsin.

# Fransa islama qarşı

## Yaxud, potensial "terrorçular"ı Beşinci Respublikadan necə qovmalı?

**Bu gün Fransada islamofobiya ən yüksək həddə çatıb, bu ölkə artıq bütün dünyada bununla tanınır. Fransa hətta vətəndaşlarının da hüquqlarını pozur. Fransada müsəlman bu ölkənin qaydaları ilə yaşamasa, cəmiyyətdə izqoya çevrilir. Məsələn, müsəlman qız öz dininin tələblərinə uyğun geyindiyi üçün məktəbə buraxılmaya və təhsil hüququndan məhrum edilə bilər. Bu, yenə də ikili standartlar siyasətidir.**

Qətiyyətlə demək olar ki, Fransa bu gün Avropada islamofobiya "flaqmanına" çevrilib. Eyni zamanda, Beşinci Respublika Avropa qitəsində ən çox müsəlman əhalisi olan ölkədir. Fransada anti-müsəlmanlar əhval-ruhiyyəsi incəsənətdə və ədəbiyyatda da öz əksini tapır. Siyasətçilər və media Fransada islamofobiyanı daha çox qızışdırırlar. Qərbdə müsəlmanlara qarşı dözümsüzlük sosial mühəndislik və layihələşdirmənin nəticəsidir. Siyasətçilər qadın hüquqları, bərabərlik və ədalət kimi sahələrdə problemlərlə mübarizə apara bilmir. Qərb qeyri-müsəlman icmalarını qorxutmaq üçün həmişə İslamdan və İslam dəyərlərindən istifadə edir. Fransada müsəlmanlara qarşı nifrət digər Avropa ölkələrindən daha çoxdur.
















Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda "Neokolonializm: İnsan hüquqlarının pozulması və ədalətsizlik" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətində də qeyd etmişdi ki, biz Fransa neokolonializm meylləri ilə paralel olaraq irqçilik və islamofobiyanın da geniş vüsət aldığını müşahidə edirik: "Bu gün burada təmsil olunan insanların bəziləri müxtəlif formada təzyiq və ayrı-seçkiliyə, irqçi hücumlara məruz qalır. Daxildə bu cür narahatedici və təhlükəli meyillilərlə mübarizə aparmalı olan Fransa hakimiyyəti başqa dövlətlərə dərs keçməyə, digər ölkələrin daxili işlərinə qarışmağa cəhd edir. Fransa qoşunlarının bu yaxınlarda Mali, Niger və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Qanlı cinayətlərlə zəngin kolonializm tarixinə görə utanmalı olan Fransa törətdiyi vəhşiliklərə görə üzr istəmək əvəzinə, digər ölkələrdə uydurma etnik təmizləmələrdən danışır. Bu ölkə BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusundan öz qərəzli, qeyri-obyektiv siyasətini yürütmək üçün sui-istifadə edir, müxtəlif regionlarda geosiyasi intriqalarla məşğul olur".

Fransada Senat qeyri-qanuni miqrantlara və ümumilikdə qaçqınlara qarşı tədbirləri sərtləşdirəcək immiqrasiya qanun layihəsini 210-115 səs çoxluğu ilə təsdiqləyib. Onlar üçün tibbi xidmət, iş və müavinət almaq daha çətin olacaq, qeyri-qanuni mühacirlərin deportasiya proseduru da asanlaşacaq. Sollar prezident Emmanuel Makronun təşəbbüsündən son dərəcə narazı idi. Hakimiyyət hökumətdən daha qətiyyətli tədbirlər görmək istərdi. Qarşıdan gələn sərtləşdirməyə baxmayaraq, gələcək qanunun ən çox müzakirə olunan hissəsi qeyri-qanuni miqrantlara əhəmiyyətli dərəcədə rahatlıq verən üçüncü bənddir. Əgər qeyri-qanuni immiqrantlar işçi qüvvəsi çatışmazlığı yaşayan sənayedə işləyirlərsə, onların Beşinci Respublikada qalma müddəti avtomatik olaraq ən azı bir il uzadılacaq. Sağçı qüvvələr, o cümlədən Respublikaçıların nümayəndələri bu məqama qarşı fəal müqavimət göstərərək, vizaların avtomatik uzadılmasının qarşısını almağa çalışırdılar.

Bununla belə, onlar digər sahələrdə çox şeylər edə biliblər ki, bu da səsvermənin uğurlu keçməsinə səbəb olub. "Qeyri-qanuni statusu olan və ictimai asayişə əhəmiyyətli zərər vura bilən" miqrantların ekstradisiya proseduru xeyli sadələşdirilib. Söhbət ilk növbədə, hipotetik olaraq "terror aktları təşkil edə bilən islamçılar"dan gedir. Xüsusilə, Fransa Rusiya Federasiyasının vətəndaşlarını ekstradisiya etməyə hazır olduğunu bildirib. Əvvəllər Beşinci Respublikada 13 il yaşayanların deportasiyası qadağan edilmişdi. Bundan başqa, qanuna görə yaşayış icazəsi almağı gözləyənlərə qarşı daha sərt tələblər tətbiq olunacaq: ərizəçi fransız dilini layiqli səviyyədə bilməli, həmçinin Fransa Respublikasının prinsiplərini dəstəkləmək üçün and içməlidir. Fransanı tərk etmək əmri verilən şəxslərin müavinətlərə çıxışını çətinləşdirmək və miqrantların öz qohumlarını Beşinci Respublikaya gətirmələri də çətinləşəcək. Yaşayış icazəsi almaq üçün müraciətlərinə baxılan miqrantlara bundan sonra bütün hallarda tibbi yardım göstərilməyəcək.

Sollar hazırlanan qanun layihəsinə qəzəbləniblər. Belə ki, Sosialist Partiyasının birinci katibi Olvier For onu "biabırçı" adlandırıb, hüquq müdafiəçiləri isə Makronun təşəbbüsünü insan hüquqlarının pozulması hesab edirlər. Daxili işlər naziri Cerald Darmanin miqrasiya sahəsində qanunvericiliyin gücləndirilməsinin fəal tərəfdarıdır. Xatırlayaq: o, Makronla əməkdaşlığa başlamazdan və 2017-ci ildə Büdcə, İctimai Hesablamalar və Mülki İdarəçilik naziri kimi Nazirlər Kabinetinə qoşulmazdan əvvəl daha sağçı Respublikaçılar Partiyasının üzvü idi. Amma indi respublikaçılar öz dairələrindən kənarlaşdırdıqları keçmiş partiya üzvü ilə heç də hər şeydə razılaşmırlar. Onlar qeyri-qanuni miqrasiyaya qarşı daha sərt xətt istəyirlər. Ola bilsin ki, respublikaçılar Makronla daha da əhəmiyyətli tədbirlərlə bağlı danışıqlar aparmağa çalışsınlar. Onların təzyiq üsulları var: qanun layihəsini Milli Assambleyada (parlamentin aşağı palatası) təbliğ etmək üçün prezidentə respublikaçıların səsi lazımdır. Baxmayaraq ki, o, son çarə kimi ölkə Konstitusiyasının 43-cü maddəsinin üçüncü bəndindən istifadə edib, bu ilin yazında pensiya islahatında olduğu kimi parlamentin təsdiqi olmadan qanun qəbul edə bilər.

Darmanen qanun layihəsinin ofisiant, dayə və kənd təsərrüfatında çalışan miqrantların vəziyyətini yüngülləşdirəcəyini vəd edib. "Le Monde" qəzeti Fransanın hələ də qonşu Almaniyadan bir neçə dəfə az miqrant qəbul etdiyini vurğulayır. Bununla paralel olaraq Beşinci Respublika da siyasi gündəm üzərində işləyir. Belə ki, çərşənbə günü Fransa mətbuatından məlum olub ki, məhkəmə Suriya prezidenti Bəşər Əsədin həbsinə order verəcək. O, 2013-cü ildə kimyəvi silahdan istifadə etməklə hücumların təşkilində, yəni insanlığa qarşı cinayətlər və müharibə cinayətləri maddələri ilə ittiham olunur.

Fransanın "radikal islam" narahatlığı

Fransada təhlükəsizlik kəskin şəkildə pisləşib. Bu, ədəbiyyat müəllimini öldürən və daha iki nəfəri yaralayan İnquşetiyadan olan 20 yaşlı çeçenin törətdiyi terror aktından sonra baş verib. Çox güman ki, ekstremist fəaliyyətin arxasında ərəb-İsrail münaqişəsi dayanır və Beşinci Respublikanın hakimiyyət orqanları artıq Fələstinə dəstək nümayişlərini qadağan edib. Mümkün terror aktlarının qarşısını almaq üçün hüquq-mühafizə qüvvələri izdihamlı insanlara cəlb olunub. Bütün bunlar fransızların şüurunda miqrasiya böhranının əhəmiyyətini kəskinləşdirə və sağçı siyasi qüvvələrə yeni populyarlıq dövrünü verə bilər.

Bazar ertəsinə qədər ölkədə 7 mindən çox əlavə əsgər xidmət edəcək. Onlar həmçinin Reqbi üzrə Dünya Kubokuna gələn tamaşaçıları qoruyacaqlar. Fransada terror təhlükəsi ən yüksək səviyyədədir. Səs-küylü qətllə bağlı 10-a yaxın adam, o cümlədən terrorçunun ailə üzvləri, ən azı qardaşı saxlanılıb. Beşinci Respublikanın prezidenti Emmanuel Makron bu hərəkəti "İslam terroru" adlandırıb.

Müəllimin qətlini daha dramatik edən hadisənin baş verdiyi Arras şəhərində əhalinin islam dinini qəbul etdiyi geniş ərazilərin, eləcə də etnik yəhudilərin yaşadığı böyük yaşayış məntəqələrinin olmasıdır. Fransızlar üç il əvvəl başqa bir gənc çeçen "islam radikalı" tərəfindən öldürülən Samuel Patinin taleyini xatırlayırlar. O vaxtdan bəri Paris terror hücumlarının qarşısını almaq üçün çox şey edəcəyini vəd etdi və hətta müsəlmanların xoşuna gəlməyən bir sıra addımlar atdı. Xüsusilə, fikirlərində ən radikal olan əcnəbi imamlar deportasiya ilə üzləşirlər və Fransa hüquq-mühafizə orqanlarının əməkdaşları da moizələrin məzmununa nəzarət etməyə başlayıblar. Yeraltı dini məktəblərin bağlanması proseduru da asanlaşıb.

Amma hər şeyə nəzarət etmək mümkün deyil. Bununla belə, müəyyən mənada sistem işləyir: hücum edən şəxs potensial terrorçuların məlumat bazasında idi, lakin bu, faciənin qarşısını almağa kömək etmədi. Mühafizəçi yaxınlıqda olsa da, hücumçunu zərərsizləşdirə bilməyib. Üstəlik, cinayət baş verən gün polis qatili dayandırsa da, onu həbs etmək üçün heç bir səbəb tapmayıb. Və təbii ki, daxili işlər naziri Gerald Darmanin də daxil olmaqla hökumətə suallar olacaq. Daxili İşlər Nazirliyinin rəhbəri özü bəyan edib ki, İsraildəki hazırkı münaqişə çox güman ki, hücumun vacib səbəbi olub.

Potensial antisemitizm aktları Yelisey Sarayını və Daxili İşlər Nazirliyini narahat edir. Bununla belə, bunsuz da hüquq-mühafizə orqanlarının əməkdaşlarının işi kifayət qədərdir. Belə ki, Luvrda bomba təhlükəsi ilə bağlı mesaj alındıqdan sonra 3 minə yaxın insan təxliyə edilib. Oxşar hadisəyə görə Versal sarayına gələnlər uzaqlaşdırılmalı olub. Hakimiyyət miqrantların məskunlaşdığı ərazilərə nəzarət edə bilmir. Onlar öz dəyərləri və çox vaxt dünyəvi əxlaqla yaşayırlar və bəzən ümumi qəbul edilmiş davranış normalarını tanımırlar.

Fələstinə dəstək aksiyalarını qadağan edən tədbir mübahisələrə səbəb olub. Söz azadlığını məhdudlaşdıran belə bir addımın ertəsi günü hücumun baş verməsi əlamətdardır. Makron bir tərəfdən dini icmalara nəzarəti gücləndirir, digər tərəfdən isə problem qalmaqdadır. Bu, o deməkdir ki, daha çox sağçı qüvvələr reytinq qazanacaq, ilk növbədə gənc lider Cordan Bardellanın rəhbərlik etdiyi Milli Ralli. Fransa İctimai Rəy İnstitutunun sorğuları da göstərib ki, yeni prezident seçkiləri olacağı təqdirdə Makron hakimiyyətin cilovunu Bardellaya təhvil verə bilər, Marin Le Penin də böyük ehtimalla qalib gələcəyi mümkün görünür. Makron son bir ildə heç bir böyük siyasi uğur qazanmayıb, lakin Paris xarici siyasətdə zərbələr almağa davam edir, məsələn, Afrikada, xüsusən Nigerdə nüfuzunu itirir.

**V.VƏLİYEV**

# Müharibələr və münaqişələr törədən YALANÇI "SÜLH GÖYƏRÇİNLƏRİ"

**Dünyanı baş-ayaq qarışdıranlar, öz oyunları fonunda çoxlu sayda insan tələfatına, yaşayış məntəqələrinin dağılmasına, ərazilərin işğal edilməsinə səbəb olanlar hansısa ölkələrə "sülh gətirmək" iddiası ilə çıxış edirlər. Qondarma sülhdən, demokratiyadan dəm vuraraq, bir çox ölkələrdə xaos yaradan, tələfata, itkilərə səbəb olan həmin o dünyanı baş-ayaq qarışdıranlar təhlükəsizliyi de-fakto təmin edən, həqiqətən də sülhün təmin edilməsi istiqamətində əməli addımlar atan ölkəni isə, qınayırlar.**




ABŞ Konqresinin aşağı palatasında, Xarici Əlaqələr Komitəsində Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyətlə bağlı dinləmələr keçirilərkən, Konqresmenlər məhz Azərbaycanın bu regionunda baş verən hadisələri, onların ilkin şərtlərini müzakirə ediblər və Dövlət Katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O'Brayen palata üzvləri qarşısında çıxış edərək Azərbaycanla bağlı kifayət qədər qəribə, uyğunsuz, məntiqsiz ifadələr səsləndirib. "Biz açıq şəkildə bildirdik ki, 19 sentyabr hadisələrindən sonra sülh yolunda irəliləyiş görməyincə Azərbaycanla bağlı heç nə normal olmayacaq. Beləliklə, biz bir sıra yüksək səviyyəli səfərləri ləğv etdik, hərəkətləri pislədik və vəziyyətin həqiqi yaxşılaşmasını görməyincə yardımın əlavə ayrılması şərtlərindən imtina barədə bildiriş verəcəyimizi gözləmirik", deyən Dövlət Katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi əslində, rəsmi Vaşinqtonun niyyətini açıb ortaya qoyub. Məsələ burasındadır ki, bu niyyət bizim üçün müəmmalı da deyildi və həmin ölkənin dünyanın hər tərəfində hansı niyyətlə hadisələrə müdaxilə etdiyi də sirr deyil. "Biz dəfələrlə Ermənistan daxilində güc tətbiqinin tamamilə qəbuledilməz olduğunu işarə etmişik", deyən həmin o köməkçi Ceyms Ermənistan daxilində hansı güc tətbiqindən danışır və bilmir ki, hansısa güc tətbiq edilməyib? Bilir. Amma onun da, ölkəsinin də gözü haqqı, ədaləti görmür və yaxud bu şəkildə görür, hansıki artıq dünya ictimaiyyəti də buna, belə bir baxış bucağına sanki alışqandır.

Amerikalılar utanmadan iddia edirlər ki, guya dünyada sülhə görə "məsuliyyət" hiss edirlər, amma bu məsuliyyəti niyə və hansı haqla hiss etdiklərini əsaslandıra bilmirlər. Axı belə bir məsuliyyəti niyə məhz ABŞ hiss etməlidir və bu ölkənin qeyri-adi, fərqli, üstün məqamları nədir ki, qeyd olunan məsuliyyətdən də dəm vurulur? Yaxud, belə bir məsuliyyəti kim həvalə edib, kimlər belə bir qərar qəbul ediblər ki, ABŞ da belə qənaətdədir? Heç şübhəsiz ki, məhz elə bu "məsuliyyət" sözündən istifadə edərək, dövlətlərin daxili işlərinə müdaxilə edilir, qarışılır və bir sözlə, burun soxulur. Sanki bütün dünya tərəfindən belə bir haqqın onlara verildiyini düşünürlər. "Demokratiya" gətirmək, guya sülhü təmin etmək adı altında amerikalılar rəngli inqlablar, maliyyə axını fonunda istədikləri ölkədə arzulamadıqları hakimiyyəti devirmək, öz siyasətlərinə tabe olacaq kimsələri rəhbər təyin etmək üçün hər vasitədən istifadə edirlər, amma haqqı, ədaləti nəzərə almaq qətiyyən yada düşmür. Bu vaxta qədər ABŞ tərəfindən hansı ölkədə hansı şəkildə müdaxilələr edildiyi, nəticənin də nədən ibarət olduğu göz önündədir. Məsələ burasındadır ki, hələ bu vaxta qədər amerikalılar bircə dənə də ölkəyə okeanın o tayından sülh gətirməyiblər. Əksinə, fakt bundan ibarətdir ki, "demokratiya", "sülh" bəhanəsi ilə amerikalılar hansı ölkəyə burun soxublarsa, həmin ölkədə qarışıqlıq, xaos, hərc-mərclik, iğtişaşlar, müharibələr, itkilər və ölkələr üçün hər cür arzuolunmaz hallar müşahidə olunub.

Sülh bəhanəsi ilə amerikalıların daxil olduğu ölkələrin siyahısı da məlumdur, onların düşdükləri çətin, acınacaqlı vəziyyət də. Maraqlıdır, ABŞ hansı ölkəyə sülh gətirib ki, belə iddialı şəkildə sülhdən dəm vurur? Bəlkə, Vyetnama, İraqa, Əfqanıstana sülh gətiriblər, biz bilmirik? Yaxud, keçmişdə Yuqoslaviyaya sülh gətirmişdilər, yoxsa Liviyada sülhü təmin etmişdilər? Axı sadalanan ölkələrdə sülh adında bir şey yoxdur. Demokratiyadan da söz açmaq mümkün deyil. Yaxşı, onda ABŞ həmin ölkələrə nə gətirib? Yəqin ki, Gürcüstanın və Ukraynanın timsalında nə gətirdiyi bəllidir. Çünki indi Ukraynada da, Gürcüstanda da vəziyyətin necə olduğu, həmin ölkələrin başlarına nələr gəldiyini, daha doğrusu gətirildiyini hamı yaxşı bilir. Gürcüstanın da, Ukraynanın da ərazisinin bir hissəsinin işğal olunduğunu, itirildiyini bilməyən yoxdur. Ukraynanın şəhərlərinin yerlə yeksan olmasını da mətbuat vasitəsi ilə müşahidə etmişik. Görmüşük ki, Ukraynanın şəhərləri viran qoyulub, ərazilərinin bir hissəsi də artıq nəzarətdən çıxıb, bu ölkənin vətəndaşları da hansı acınacaqlı vəziyyətdədir. Körpülərin altında, daldalanacaqlarda, sığınacaqlarda insanların necə toplaşdığını foto və video materiallarda hamımız görmüşük. Həmin sığınacaqlarda ölüm qorxusu ilə yaşayanlar, həyatları cəhənnəm əzabına çevrilənlər amerikalılar yox, amerikalıların sülh adı ilə müdaxilə etdikləri ölkələrin vətəndaşlarıdır. Dağılan ABŞ dövlətinin əraziləri, şəhərləri, əyalətləri deyil, həmin dövlətin burun soxduğu ölkələrin şəhər və kəndləri, əyalətləridir. Bəli, ABŞ kimi fövqəl dövlətlərin, Qərbin "demokratiya" və "sülh" adlı geosiyasi oyunlarının qurbanına çevrilən ölkələrin əyalətləri və vətəndaşlarıdır əziyyət çəkən. Hanı bəs həmin ölkələrə amerikalıların gətirdiyi sülh? Bunu görən yoxdur axı. Rusiya ilə müharibə başa çatdıqdan sonra Ukraynanın dağılmış şəhərlərinin taleyi necə olacaq? Necə qurulacaq bu şəhərlər? Kim yenidən bu şəhərləri quracaq və kömək hardan olacaq? Əfqanıstanı 20 il işğal altında saxladığı müddətdə həmin ölkədə bir dənə də olsun obyekt tikməyən, yol salmayan, amma bu illər ərzində bütün ölkəni narkotik vasitələrin plantasiyasına çevirən ABŞ salacaq həmin şəhərləri, yoxsa ukraynalılar şəhərlərini bərpa etdikləri, yenidən qurduqları zaman amerikalılar da gəlib onlarla yanaşı qollarını çirməyib işləyəcəklər?

Ukraynaya müstəqillik, sülh, demokratiya vəd edən ABŞ bu ölkəyə sülh gətirdimi? Bu qədər dağıntıları müşahidə etdikdən sonra sülh sözü heç yada belə düşürmü? Bəs niyə bu boyda acınacaqlı vəziyyətin fonunda Amerika Birləşmiş Ştatları ortada deyil? Niyə köməkləri görmürük? Axı vəd edilmişdi, söz verilmişdi. Hanı o verilən vədlər? Hanı o müdafiə barədə deyilən sözlər? Düz 2008-ci ildən, 2014-cü ilə qədər və hətta 2022-ci illərə qədər Qara dənizdə Gürcüstan və Ukrayna sahillərində peyda olan Amerika təyyarədaşıyıcısı və zərbə qrupu hanı bəs? Harada qaldı edəcəkləri kömək? Axı kömək edəcəklərinə zəmanət belə vermişdilər. ABŞ vəd etdiyi kəməkliyi harda göstərir? Yalnız etirazçı insanların toplaşdıqları mitinqlərdə, aksiyalarda bu kömәkliyi görə bilirik. Ya siyasi müdaxilə, bir-birindən çirkin ssenarilərlə "kömək" edilir, ya da etirazçılara peçenye paylamaqla "dəstək" göstərilir. Bu qədər insan tələfatının, dağıntıların fonunda etirazçılara peçenye paylamaqla işlərini bitmiş hesab edirlər və zənn edirlər ki, bu kömәkdir? Yəni, elə hesab edirlər ki, bunları görən yoxdur? Təbii ki, var və indi Ermənistandan fərqli olaraq, dünyanın hərhansı müstəqil, suveren ölkəsini, eləcə də Azərbaycanı belə sülh qətiyyən maraqlandırmır və ölkəmiz bunu yaxına belə buraxan deyil.

Afrikada fransızlar, Hindistanda ingilislər, Asiyada da yaponlar necə "qarşılanırsa", barələrində nə düşünülürsə, bütövlükdə dünya ictimaiyyəti də artıq amerikalıları eləcə də qarşılamaqdadır. Necə ki, Latın Amerikasında, yumşaq şəkildə desək, sevilmədikləri kimi, heç Azərbaycanda da arzuolunan deyillər. Doğrudur, arzuolunmaz qonaq kimi ölkəmizdə daxili sabitliyi pozmaq məqsədi ilə bir çox fondları və təşkilatları maliyyələşdirərək öz başa düşdükləri şəkildə "sülh gətirmək" arzusuna dəfələrlə düşüblər, amma Azərbaycan buna imkan verməyib və niyyətlərini ifşa da edib. Ölkəmizdə də dırnaqarası "demokratiya" bəhanəsi ilə qarışıqlıq, xaos yaratmaq cəhdlərinin qarşısı alınıb. Çünki öz ölkəsində günbəgün artan dövlət borcu probleminin, irqi ayrı-seçkilik, polis zorakılığı, kriminalın baş alıb getməsi və digər çoxsaylı daxili problemlərinin öhdəsindən gələ bilməyənlərin gətirmək istədikləri "demokratiya", yaxud da "sülh" bizim üçün, ölkəmiz üçün maraqlı ola bilməz.

ABŞ indi Ermənistanı ərköyün uşaq kimi əlində oynadırsa da, regiona soxulmaq üçün pulla, vəsaitlə həmin işğalçı ölkəni şirnikləndirirsə də yaxşı başa düşür ki, Azərbaycan olmadan nə Cənubi Qafqazda, nə də Mərkəzi Asiyada siyasəti, rolu olmayacaq. Ona görə də mütəmadi şəkildə ölkəmizə müdaxilə etməyə çalışır və buna nail olmadığına görə Ermənistan üzərindən Azərbaycana qarşı əsassız, məntiqsiz və mənasız ittihamlarla çıxış edir. Bununla heç zaman kifayətlənməyən amerikalılar postsovet məkanı ölkələri, Cənubi Qafqazda yerləşən ölkələrdə siyasi kataklizmlər yaratmaq üçün hər vasitəyə əl atıblar. Regionda cərəyan edən xoşagəlməz hadisələrin, elə məhz siyasi kataklizmlərin ən böyük və əsl səbəbkarı da elə ABŞ hesab olunur. Çünki dırnaqarası "demokratiya" və "sülh" bəhanəsi ilə rəngli inqlablarla regiona soxulan ABŞ əvvəlcə Gürcüstanda, sonra da Ermənistanda dövlət çevrilişinə nail oldu. Qərbin, Amerika Birləşmiş Ştatlarının regionumuzda rəngli inqlablar ssenarisində Azərbaycanda da hansısa əməllər törətmək niyyəti hələ 2000-ci illərdə özünü göstərdi və gerçəkləşdirmək istədiklərinin qarşısı dövlətimiz tərəfindən alındı. Amma hələ də baş sındırırlar və niyyətlərinə nail ola bilməyən amerikalılar ölkəmizi ittiham etməklə də olsa Azərbaycana qarşı nə isə etməyə çalışırlar. Ermənistan tərəfinin haqsız iddialarına görə, ermənilərin əsassız iddialarını nəzərə alaraq, ölkəmizə qarşı ittihamlar irəli sürən Qərb, elə məhz münaqişənin həllində məsul olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olan ABŞ ərazilərimizin işğalı, etnik təmizləmə, milli-mədəni irsimizin məhv edilməsi, sərvətlərimizin talanmasına görə də məsuliyyət daşıdığını xarırlamalıdır. BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin icrası istiqamətində bir dənə də addım atmayan, bircə dəfə də olsa Ermənistanı qınamayan, qətnamələrin icrasına görə bir çağırış belə etməyən, amma 1992-ci ildə Azərbaycana qarşı "907-ci düzəliş"i qəbul edən amerikalıları xalqımız unutmayıb və onların iddia etdikləri "demokratiya"da, "sülh" də bizə lazım deyil. Elə bu rakursda, bu prizmada bundan sonra da amerikalılara, ümumiyyətlə, ölkəmizə diqtə etmək istəyənlərə, təhdid dili ilə danışanlara, çirkin niyyətlə burnunu daxili işlərimizə soxanlara öz yerləri göstəriləcək. Necə ki, USAİD kimi bir təşkilat hələ illər öncə ölkəmizdə ifşa olunmuşdu, eləcə də Amerikaya, Qərbə aid olan bütün şəbəkələr təmizlənməli, onlarla qətiyyən əməkdaşlıq edilməməlidir.

Öz ağasını dəyişməyə hazır olduğunu dəfələrlə bəyan edən, bunun üçün əldən-ayaqdan gedən, əvvəlki müttəfiqlərinə də buna görə xəyanət edərək özünü göstərməyə çalışan, özlərini sığortalamağa cəhd edən, amerikalılara qucaq açan ermənilər dünyada baş verənləri görməsələr, dərk etməsələr də, yəqin ki, ukraynalıların başlarına gələni yaşadıqları zaman dərk edərlər. Zehni və yaddaş problemlərindən əziyyət çəkən ermənilərə xatırlatmaq yerinə düşərdi ki, nə qədər zəmanət alsalar da, nə qədər sığortalandıqlarını düşünsələr də, buna əmin olmaları fəlakətlər vəd edir. Rəsmi İrəvan artıq Tbilisi və Kiyev nümunəsində reallıqların nədən ibarət olduğunu dərk etməlidir. Dərk etməlidir ki, öz ərazilərinin bir hissəsini artıq itirən, tələfat və itgilər verən Gürcüstanda və Ukraynada bir dənə də olsa amerikalı zərər çəkmədi. Haylar bilməlidirlər ki, eyni ilə ruslara qarşı odlu-alovlu nitqlər edən, bəyanatlar səsləndirən, sanksiyalar kəsən amerikalılar ukraynalıların yerinə zülm içərisində qalmadılar. Bilməlidirlər ki, Ermənistandan fərqli olaraq, Azərbaycan dövləti heç bir ölkədən, həmçinin Amerikadan asılı bir dövlət deyil və hansısa ölkənin nə köməyinə, nə dırnaqarası "demokratiyasına", nə də Ukraynada yaratdığı "sülhə" ehtiyac duymur və ümumiyyətlə, bizə Qərbin, Amerikanın gətirmək istədiyi lazım da deyil. Bir sözlə, əgər haylar amerikalıların bizdən üz döndərmələrinə nail ola bildiklərinə görə öyünmək fikrindədirlərsə, yanılırlar. Əvvəla ona görə ki, qüdrətli Azərbaycanın kimsəyə, kimsənin də gətirmək istədiyinə ehtiyacı yoxdur və digər tərəfdən də ermənilər qoy həmin o amerikalıları öz ölkələrində eyni ilə Ukraynada yaratdıqları "demokratiya" və "sülh" şəraitini yaratmağa dəvət etsinlər. Bütün bunların fonunda isə ABŞ və Fransa kimi ölkələrin, məhz beynəlxalq hüququn norma və prinsplərinə əsaslanaraq, öz haqlarını bərpa edən, təhlükəsizliyi təmin edən, sabitlik yaradan Azərbaycana qarşı ittihamları da mənasız və yersiz səsləndiyini həm amerilalar, həm fransızlar, həm də haylar bilsinlər. Bilsinlər ki, müharibələr, münaqişələr, fəlakətlər törədən, xaos və qarışıqlıqlar yaradan yalançı sülh göyərçinləri bizə lazım deyil.

***İnam Hacıyev***

# Əli Kərimlinin trol dəstəsi təxribatlarını genişləndirir



Azərbaycanın Müzəffər Ordusu 44 günlük Vətən Müharibəsində dünya hərb tarixinə yeni səhifə yazmaqla, həm də nümayiş etdirdi ki, dünyanın ən güclü və qüdrətli ordusudur. Bu ordu qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə qadirdir. 2023-cü il sentyabrın 19-da başlayan və cəmi 23 saat 44 dəqiqə çəkən lokal antiterror tədbirlərinin uğurla başa çatması Ordumuzun peşəkarlığının növbəti nümayişi idi. Artıq separatizm ləğv edilib, silahlı birləşmələr tərkisilah olunublar. Ərazilərdə Azərbaycanın üçrəngli bayrağı dalğalanmaqdadır. Erməni sakinləri rahat şəkildə yaşayışlarını davam etdirirlər. Elələri də var ki, ərazini tərk edib Ermənistana gedirlər. Azərbaycan Respublikasının rəsmi qurumları açıq mətnlə qeyd ediblər ki, "Azərbaycanın Qarabağ bölgəsindəki erməni sakinlərə reinteqrasiya təklif olunub, buna razı və ya hazır olmayanlar könüllü şəkildə ərazini tərk edir, buna tam şərait yaradılır, heç bir zorakılıq halı yoxdur". Digər tərəfdən qalıb Qarabağda yaşayan ermənilərə hər cür yardımlar göstərilir. İlkin mərhələdə onlar qida, yanacaq və digər zəruri məhsullarla təmin olunurlar. Eyni zamanda, Xankəndinin və ətraf ərazilərin elektrik enerjisi ilə təmin olunması istiqamətində əhəmiyyətli işlər görülüb. Artıq sentyabrın 24-dən Xankəndi şəhəri "Azərişıq" tərəfindən enerji ilə təmin olunub. Bütün görülən yardımlar təbii görünməli və qəbul edilməlidir. Çünki Azərbaycan qalib və güclü dövlətdir, ehtiyacı olan vətəndaşlarını etnik mənsubiyyətindən asılı olmayaraq, zəruri yardımlarla təmin edir. Azərbaycan məhz qalib dövlətə yaraşan şəkildə nümunəvi, ləyaqətli davranış nümayiş etdirir. Acı-ağrı hissi ilə qeyd olunmalıdır ki, lokal antiterror tədbirləri zamanı şəhidlərimiz və yaralılarımız oldu. Onlar dünyanın lokal xarakterli antiterror tədbirləri tarixində qızıl hərflərlə öz adlarını yazıblar. Bütün xalq Azərbaycanın qəhrəman övladları ilə fəxr edir! İllər, qərinələr keçsə də, xalq öz qəhrəman oğullarının şücaətini unutmayacaq. Daim onlar yad ediləcək, adları əbədiləşdiriləcək, haqlarında hekayələr yazılacaq, dastanlar qoşulacaq, mahnılar bəstələcək, şeirlər yazılacaq. Onlar hər bir azərbaycanlının and yeri, qürur mənbəyi olacaq.

### Dağıdıcı müxalifət erməni təəssübkeşliyi rolunda çıxış edir

Parlaq hərbi və siyasi qələbə onu bir daha göstərir ki, ölkəmiz istədiyinə nail olur, məqsəd və hədəflərini reallığa çevirir. Təəssüflər olsun ki, böyük qələbəmizə acılıq qatmağa çalışanlar var. Xüsusilə də sapı özümüzdən olan baltalar erməni təəssübkeşliyi rolunda çıxış edir, qaraniyyətli statuslar yazır, videolar paylaşırlar. AXCP sədri Əli Kərimli sanki Vardanyanın əmisi oğludur, ya da Kristofer Smitlə eyni tikəni bölüşüblər. Bütün günü sosial şəbəkələrdə vurnuxan Ə.Kərimli və trol dəstəsi cəmiyyətdə ruh düşkünlüyü yaratmağa, insanları çaşdırmağa, qələbəmizə kölgə salmağa hesablanan fikirlər paylaşırlar. Ə.Kərimli dolayısı ilə Xankəndidə qalacaq ermənilərin hüquq və azadlıqları ilə bağlı problemlərinin olacağına dair təxribatçı fikirlər söyləyir: "BMT Təhlükəsizlik Şurasındakı müzakirələrdən Azərbaycan hakimiyyəti özü üçün dərslər çıxarmalıdır. Baxmayaraq ki, Qarabağdakı son hərbi əməliyyat zamanı Azərbaycan ordusu mülki əhalini və mülki infrastrukturları, həqiqətən də, hədəf almamışdı, ancaq Təhlükəsizlik Şurasında təmsil olunan dövlətlərin mütləq əksəriyyəti Qarabağda insan hüquqları və humanitar vəziyyətlə bağlı narahatlıq ifadə edirdi". Ə.Kərimli bir qədər də dərinə gedərək, sayıqlama xarakterli fikirlərini genişləndirir: "Məhz hakimiyyətin bu repressiv imicinə görə erməni təbliğatı Qarabağdakı erməni əhalinin hüquq və təhlükəsizliyi ilə bağlı dünyaya müraciət edəndə, hətta Azərbaycanla dostluq və strateji tərəfdaşlıq münasibəti olan dövlətlərdə belə narahatlıq yaranır. Bu narahatlığı aradan qaldırmaq üçün Qarabağın erməni əhalisinə humanitar yardım göndərmək doğrudur, əlbəttə, ancaq kifayət deyil. Hakimiyyət təkcə Qarabağda yox, bütövlükdə Azərbaycanda insan hüquqlarına zəmanət verməlidir. Həm də sözdə yox, əməldə. Siyasi məhbuslar dərhal azad edilməlidir. Sərbəst toplaşmaq, birləşmək, ifadə azadlığı da daxil olmaqla Azərbaycan vətəndaşlarının bütün konstitusion hüquq və azadlıqlarına təminat verilməlidir. Yalnız o halda dünyanı inandırmaq mümkün olacaq ki, Qarabağda yaşayan dinc erməni əhalinin də Azərbaycan vətəndaşları olaraq hüquq və azadlıqları təmin olunacaq".

Göründüyü kimi, təxribatçı mövqeyini açıq şəkildə ifadə edən Ə.Kərimli bununla erməni separatçılarının qidalandıqları qazandan bəhrələndiyini göstərir. Azərbaycanda insan hüquq və azadlıqları ilə bağlı heç bir problem yoxdur. Əhali azad və demokratik şəkildə ömür sürür, siyasi partiya yetkililəri istədiyi formada və istədiyi tərzdə fikirlərini ifadə edə bilirlər. Əgər insan hüquqları sahəsində əngəllər olsa idi, Ə.Kərimli və trol dəstəsi sosial şəbəkələrdə Koçaryan, Vardanyan, Sarkisyan və digər "yan"lar kimi Azərbaycan xaqının heysiyyatına toxunan fikirlər söyləyə bilməzdilər. Uzağa getməyək, elə tez-tez maddi və mənəvi yardımlar aldıqları Fransada, İngiltərədə, ABŞ-da, Norveçdə, Almaniyada və digər dövlətlərdə sosial şəbəkələr tam şəkildə dövlətin nəzarəti altındadır. Kimsə qanunlara zidd paylaşmalar edərsə, dərhal cərimələnirlər, hətta həbs edilənlər də olur. Azərbaycanda isə bu günə qədər yazdığı statusuna və ya paylaşdığı videosuna görə adi xəbərdarlığa belə məruz qalan olmayıb. İstənilən məqamda istənilən partiya, təşkilat mitinq, piket keçirə bilir. Ermənilərin təəssübkeşliyini çəkən Ə.Kərimliyə xatırlatmaq istərdik ki, narahatlığına əsas yoxdur, ermənilər digər azlıqlar kimi Azərbaycanın qanunvericilik aktlarından bəhrələnə biləcəklər. Artıq ermənilər etiraf etməyə başlayıblar ki, onlar Azərbaycanın bayrağı altında daha rahat və təhlükəsiz yaşaya bilərlər. Vətəndaşlıq almaq üçün müraciət edənlərin sayının kifayət qədər çox olması da erməni sakinlərinin Ə.Kərimlidən fərqli mövqedə olduqlarını göstərir.

### Əli Kərimli özünü siyasətçi deyil, bloger adlandırsa daha yaxşı olar

Sosial şəbəkələrdə yazılanlarla və paylaşımlarla tanış olduqda öz-özünə düşünürsən ki, bu dağıdıcı müxalifət niyə bu qədər xalqa düşmən kəsilib? Xalqın bu müxalifətə nə pisliyi olub ki, qisas almaq üçün hər cür şər və böhtanlarını səsləndirirlər? Lokal xarakerli antiterror tədbirləri barədə elə açıqlamalar verir, statuslar payıaşırlar ki, sanki ermənidirlər. Rusiyanın qaranlıq dairələrinin layihəsini icra etmək üçün Xankəndinə gəlib, üzüqara qalan Rüben Vardanyan Fransanın 24- TV kanalına açıqlamasında deyir ki, "Azərbaycan bütün Qarabağa nəzarət edir". Ə.Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı və digərləri isə iddia edirlər ki, hələ suverenliyimiz bərpa olunmayıb. Bununla sanki R.Vardanyandan ağıllı olduqlarını göstərməyə çalışırlar. İmkanları olsa idi, R.Vardanyanı qınaya və tənbeh edərdilər ki, niyə o cür fikirlər söyləyirsən. Bunu deyə bilməsələr də, erməni separtçılarını "qəhrəman"laşdırmağa hesablanan ifadələrini dillərinə gətirirlər. Ə.Kərimli deyir ki, "Bizim ordu Qarabağda hansı güclü ordu ilə qarşılaşıb ki, bircə gündə bu qədər şəhid vermişik? Müdafiə Nazirliyinin özünün paylaşdığı videogörüntülər də göstərir ki, erməni separatçılarının əksər mövqeləri və hərbi obyektləri Bayraktar PUA-ları və digər dəqiq silahlarla vurulub. Azərbaycan ordusunun bu qədər texnoloji, silah və say üstünlüyü olduğu halda, bircə gündə nəyə görə bu qədər çox itki vermişik? Susmaq, danışmamaq çarə deyil. Hakimiyyət mütləq xalqa izahat verməlidir".

Milli Şuranın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəyli də liderinin söylədiklərini dənləyib, sosial şəbəkələrdə təkrarlayır: "24 saatdan da az müddətdə və 3 min kv.km-dən də kiçik bir ərazidə davam edən antiterror tədbirlərində bəzi qeyri-rəsmi mənbələrin bildirdiyinə görə 150-dən çox şəhid vermişik, ancaq Xankəndidə hələ də erməni bayraqları dalğalanır, işğal altında olan bircə kəndimizin azad edilməsi haqqında təsdiqlənmiş məlumat yoxdur".

Qısası, bu məxluq ünsürlər bütün güc və imkanlarını əhali arasında qələbə əhval-ruhiyyəsinə kölgə salmağa yönəldiblər. Lakin onların bəd niyyətləri baş tutmayacaq. Çünki xalq onları və onlara himayədarlıq edən qüvvələrin məqsədlərini bilirlər. Bu baxımdan, G.Hacıbəyli, Ə.Kərimli, C.Həsənli və digərlərinin sayıqlamaları elə sayıqlama kimi də onların səhifələrində qalacaq.

***İ.ƏLİYEV***



## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər

"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin





geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il noyabrın 17-də Yeni Azərbaycan Partiyası (YAP) Abşeron rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Xırdalan şəhər Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb.

Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Sonra keçirilən dəyirmi masada Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən bəhs edilib. Sonda xatirə fotosu çəkdirilib.

# ABŞ-ın Ermənistanı dəstəkləməsi regionda nəyi dəyişə bilər?

**Ermənistan Müdafiə Nazirliyinin saytı xəbər verir ki, Pentaqon hərbçilərin peşəkar və döyüş hazırlığı sahəsində Ermənistana yardım etməyə başlayacaq. Bununla bağlı Ermənistan müdafiə nazirinin 1-ci müavini, Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-leytenant Edvard Asryan və ABŞ-ın Avropa Komandanlığı komandanının müavini Stiven Başam arasında Ştutqart görüşündə razılıq əldə olunub.**

"Başam ABŞ-ın aşağıdakı sahələrdə əməkdaşlığın yeni sahələrinə başlamağa hazır olduğunu bildirib: silahlı qüvvələrin peşəkarlaşdırılması, hərbi təhsil və döyüş hazırlığı, təlimlər və s.", - Ermənistan hərbi idarəsinin bəyanatında deyilir.

Həmçinin əməkdaşlıq sahələrinə artıq mövcud proqramlardan əlavə komandanlıq və idarəetmə sisteminin modernləşdirilməsi, sülhməramlılıq və hərbi tibb daxildir.

"Görüş zamanı Ermənistan-Amerika hərbi əməkdaşlığının inkişafı məsələləri müzakirə edilib", - məlumatda deyilir. Bundan əlavə, generallar regional təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Asryan EUCOM-un qərargahından əlavə ABŞ Ordusunun Hohenfelsdə yerləşən Avropadakı Quru Qoşunlarının Birgə Çoxmillətli Təlim Mərkəzinə və Serjant Akademiyasına da baş çəkib.

Maraqlıdır, ABŞ Ermənistanla hərbi əməkdaşlığı dərinləşdirməklə hansı məqsədləri güdür? Onlar bilməyə bilməzlər ki, nisbətən yaxın vaxtlara qədər kənardan dəstək hesabına xeyli silah-sursata malik olan Ermənistan qonşu Azərbaycana qarşı işğalçılıq müharibəsi aparırdı və onun rəsmi sənədlərində qonşularına qarşı ərazi iddiaları qeydə alınır. Belə acınacaqlı təcrübədən sonra Bakı və Ankaranın xarici dövlətlərin Ermənistanı hərbi sahədə dəstəkləmək cəhdlərindən ehtiyatlanması təbiidir. Artıq Fransa, Hindistan və İran bunda diqqət çəkib. İndi də ABŞ. Çətin ki, belə addımlar Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanmasını və Ermənistanla Türkiyə arasında diplomatik münasibətlərin bərpasını daha da yaxınlaşdırsın. Bəs onda niyə bu yola gedirlər?




Bu barədə xarici ekspertlər "Caliber" analitik mərkəzinə öz fikirlərini bildiriblər. Ekspertlərin şərhlərini oxucularımıza təqdim edirik.

Türkiyəli politoloq, siyasi elmlər doktoru, professor Heydər Çakmak hesab edir ki, ABŞ-ın Ermənistana hərbi yardımı və onun hərbçilərinin yetişdirilməsi Vaşinqtonun İrəvanın hesabına region ölkələrini nəzarətdə saxlamaq cəhdidir.

"Lakin Ermənistan silahlı qüvvələri nə qədər hazırlıqlı olsalar da, Rusiya, Azərbaycan və Türkiyəyə qarşı heç vaxt uğur qazana bilməyəcəklər. Mənə elə gəlir ki, amerikalıların yuxarıdakı hərəkətlərində məqsəd Ermənistan vasitəsilə region ölkələrini narahat etmək, diqqətini yayındırmaqdır. Düşünürəm ki, Ermənistan rəhbərliyi bunun fərqindədir, lakin onların məqsədi Rusiyanın təsirindən qurtulmaq və Qərb ölkələri ilə yaxınlaşmaqdır. Yeri gəlmişkən, bunu həm erməni xalqı, həm də Qərb dövlətləri istəyir. Bunun üçün isə Türkiyə və Azərbaycanla yaxşı yola getmək lazımdır" - professor Çakmak deyir.




Amerikalı politoloq Endryu Korıbko öz növbəsində bildirib ki, ABŞ-ın məqsədi Ermənistanı Rusiyadan və Moskvanın rəhbərlik etdiyi KTMT-dən "cəzb etmək"dir və bu məqsədlə Vaşinqton indi bu planın hərbi ölçüsünə diqqəti bu yaxınlarda razılaşdırılmış vasitələrlə yönəldir.

"Amerika siyasətçiləri belə qənaətə gəliblər ki, Ermənistanın Qarabağdakı məğlubiyyəti bu münaqişədən sonra Moskvanın geniş, lakin yersiz narazılığından istifadə edərək, Rusiyanın hesabına bu ölkədə öz təsirlərini genişləndirmək imkanı yaradıb.



Bir çox ermənilər öz diasporlarının məğlubiyyətə görə məsuliyyətin Rusiyanın boynunda olması və bu, onların ölkələrinin ondan uzaqlaşmasına haqq qazandırması ilə bağlı təbliğatın təsirinə məruz qalıb, lakin reallıq budur ki, KTMT-nin qarşılıqlı müdafiə öhdəlikləri Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinə şamil edilmir. Lakin bu yanlış təsəvvür erməni cəmiyyətində geniş yayılıb və Amerika tərəfindən Ermənistandakı son hərbi fəaliyyətləri üçün istifadə edilib",- Korıbko deyir.

O hesab edir ki, Birləşmiş Ştatların burada bir neçə strateji hədəfi var.

"Birincisi, onlar ümumən Ermənistan-Rusiya münasibətlərini pisləşdirmək istəyirlər, ikinci məqsəd isə, xüsusilə, hərbi əməkdaşlıqdan söhbət gedəndə bunu etməkdir. Üçüncü məqsəd əvvəlki ikisinə əsaslanır və yeni razılaşdırılmış ABŞ-Ermənistan əməkdaşlığına aiddir ki, bu da ABŞ-ın bu ölkənin komanda və nəzarət sistemlərinə planlaşdırılmış müdaxiləsi səbəbindən Rusiya-Ermənistan əməkdaşlığına problemlər yarada bilər. Sadəcə olaraq, ABŞ Ermənistan vasitəsilə Rusiyaya qarşı casusluq edə bilər.

Bu, bəzi tənqidçilərin instinktiv olaraq iddia edə biləcəyi kimi, bu sui-qəsd nəzəriyyəsi deyil, bu qorxular Amerikanın bəzi tərəfdaşlarının Rusiya ilə hərbi əməkdaşlıq faktları ilə üzləşdiyi zaman özlərinin təcrübəsinə əsaslanır. Amerika daha əvvəl Moskvadan S-400 hava hücumundan müdafiə sistemləri alan Hindistan və Türkiyə kimi ölkələrin ABŞ-la hərbi əməkdaşlığına dair kəşfiyyat məlumatları əldə etmək üçün gizli şəkildə Rusiyaya açıla biləcəyini bildirmişdi. Məhz bu bəhanə ilə dövlətlər Türkiyəyə qarşı sanksiyalar tətbiq etdilər və onunla bəzi əməkdaşlıq formalarını dayandırdılar", - politoloq bildirib.



Onun fikrincə, bu konkret narahatlıqların əsaslı olub-olmamasından asılı olmayaraq, fakt ondan ibarətdir ki, onlar amerikalı siyasətçilər tərəfindən açıq şəkildə ifadə edilib və ABŞ-ın Ermənistanla yenicə qurulmuş hərbi əməkdaşlığı ilə bağlı Rusiyanın maraqlarına gəldikdə aktualdır.

"Bunu nəzərə alaraq, ABŞ-ın əldə etmək istədiyi dördüncü strateji məqsəd Ermənistanı özünün regional təsir qalasına çevirməkdir. İrəvanda artıq dünyanın ən böyük ABŞ səfirliklərindən biri yerləşir, ona görə də bu, bu planın növbəti mərhələsidir.

Nəhayət, əgər ABŞ bu geosiyasi layihəni başa çatdırmaq üçün bu ölkəni tədricən özünün regional təsir qalasına çevirmək üçün ümumilikdə Ermənistan-Rusiya münasibətlərini, xüsusən də onların hərbi əməkdaşlığına münasibətdə uğurla pisləşərsə, Gürcüstan üzərində öz təsirini bərpa etməli olacaq. İndiki Gürcüstan hökuməti çox praqmatikdir və ABŞ-ın tələblərinə baxmayaraq, Rusiyaya qarşı sanksiyalar tətbiq etməkdən imtina edir ki, bu da son bir ildə ikitərəfli münasibətlərdə müəyyən problemlər yaradıb.

Gürcüstan çoxlarının yeni Soyuq Müharibə adlandırdığı şəraitdə qürurla strateji muxtariyyətini qoruyub saxlasa da, ABŞ regional təsir qalası kimi Ermənistandan maksimum yararlana bilmir, buna görə də ya Tbilisini öz istəyini yerinə yetirməyə məcbur etmək, ya da rejim dəyişikliyinə nail olmaq lazımdır. Yalnız bu halda Birləşmiş Ştatlar Ermənistana məhdudiyyətsiz hərbi girişə və onun İran, Rusiya, Türkiyə və hətta Azərbaycana qarşı təmin edə biləcəyi strateji təsir rıçaqlarına arxayın ola bilər.

Bu dörd ölkə üçün ABŞ-ın Ermənistandakı geosiyasi layihəsinə qarşı durmaq çətin olacaq, lakin onlar arasında daha sıx hərbi-strateji koordinasiya təhlükənin bir hissəsini azaltmağa kömək edə bilər. Birləşmiş Ştatlar Ermənistan üzərində bütün sahələrdə, xüsusən də hərbi sahədə təsirini tədricən genişləndirməkdə davam edərsə, o zaman bir gün bu ölkənin revanşist fantaziyalarına dəstək vermək qərarına gəlsə, regional sabitlik risk altında ola bilər", - amerikalı analitik yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# Sergey Markov:
# "ABŞ-ın ermənipərət siyasəti artıq heç nəyi dəyişə bilməz"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*









Srağagün ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms O`Brayen Azərbaycana qarşı ittihamlar səsləndirib. Amerika tərəfinin əsəbiliyinin səbəbi Azərbaycanın Qarabağda noyabrın 19-20-də həyata keçirdiyi antiterror tədbirləri olub. O'Brayen Azərbaycanı Ermənistanın ərazi bütövlüyünü pozmaqda ittiham edib. Dövlət Departamentinin nümayəndəsi bildirib ki, sentyabrın 19-dan sonra ABŞ və Azərbaycan arasında münasibətlər əvvəlki kimi olmayacaq və rəsmi Bakı Yerevanla sülh məsələsində konstruktiv mövqe tutmayana qədər Vaşinqton Azərbaycana hərbi və digər yardımları dayandırır.



Bunun fonunda Rusiya Xarici İşlər Nazirliyi İrəvana qarşı görünməmiş tənqidlə çıxış edir. Moskva Ermənistan rəhbərliyinin qərbli dostlarının "yaxşı" məsləhətləri sayəsində Azərbaycan və Ermənistan arasında nəqliyyat və iqtisadi əlaqələrin blokunun açılmasına dair razılaşmaların dəfələrlə pozulmasını qeyd edir. İrəvan Ermənistan hakimiyyətinin Avrasiya strukturundan böyük fayda əldə edərkən iki kürsüdə- Aİ və Qərbdə əyləşməkdə ittiham olunur. Moskva Ermənistan tərəfini Qarabağ erməniləri ilə bağlı saxta xəbərlərdə günahlandırır, eyni zamanda onun rəsmi Bakıya qarşı mövqeyini qınayır. Bakı ilə razılaşdırmadan Ermənistan-Azərbaycan sərhədində yerləşən Aİ missiyasını xatırladır. Qeyd edilir ki, Qərbin Ukrayna ilə bağlı strategiya iflasa uğradığından "Ermənistanın boğazından möhkəm yapışıb".

Bakı ABŞ-ın sərt bəyanatlarından sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında Vaşinqtonda keçiriləcək görüşdən imtina edərək, ABŞ-ın uzun müddət erməni separatizminin sponsoru olduğunu bildirib.

Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov "Moskva-Baku" portalına müsahibəsində Cənubi Qafqaz ətrafında geosiyasi ehtirasları şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Sergey Aleksandroviç, niyə birdən-birə ABŞ-dan Azərbaycana qarşı belə misli görünməmiş tənqidlər (hətta konkret qərarlar da) oldu... Azərbaycan Qərbə nədə mane olur?***

- O, heç nəyə mane olmur, bəlkə də həddindən artıq suverenliyindən başqa... Mən düşünmürəm ki, Qərb indi anti-Azərbaycan şəkildə sərt hərəkət etsin. Dövlət Departamenti nümayəndəsinin anti-Azərbaycan bəyanatları ABŞ-ın İrəvanı öz dəstəyinə maksimal dərəcədə inandırmaq və Ermənistanın ictimai rəyini maksimum dərəcədə öz tərəfinə çəkmək məqsədilə həyata keçirdiyi bir məşqdir.

Gələcəkdə ABŞ konkret hərəkətlərlə Azərbaycana qarşı yeni kampaniyaya başlaya bilər, bu da istisna deyil. Hələlik bunlar ermənipərəst bəyanatlardır və Ermənistanda ən çox Azərbaycan və Türkiyəyə nifrət edilməsinə yönəlib.



Buna görə də, mənim fikrimcə, ABŞ tərəfindən bu, daha çox oyun və uydurmadır. Amma bütün bunlarla hər şey ABŞ-ın Ermənistan ərazisinə öz ordusunu və müşahidəçilərini yerləşdirməsi ilə bitə bilər. Onlar Ermənistanı tam nəzarətə götürmək istəyirlər. Onda başqa planlar da qurmaq olar... Məsələn, Azərbaycan nefti və qazı onlar üçün dadlı loxmadır. Amma Azərbaycan müstəqil dövlətdir. Özünü manipulyasiya etməyə imkan verməyəcək.

***- ABŞ-ın Rusiyadan ayrılmaq müqabilində Ermənistan üçün görünməmiş təhlükəsizlik yastığı hazırladığına dair məlumatlar var...***

- Düşünürəm ki, Ermənistan və Qərb üçün hər şey plana uyğun gedir. Mən deyərdim ki, bu gün Nikol Paşinyan Ermənistanı Rusiyadan uzaqlaşdıraraq Qərbə tərəf döndərmək üçün Qarabağın itirilməsi ilə bağlı yaranmış təpkidən maksimum yararlanmaq niyyətindədir. Və biz İrəvanın mütəmadi olaraq verdiyi bəyanatları görürük ki, bu da müvafiq fon yaratmalıdır.

Paşinyanın strategiyası Rusiyanı kəskin hərəkətlərə və mənfi reaksiyaya sövq etməkdir: o və komandasının nümayəndələri MDB iclasına getmir, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iclasına getmir, Ermənistanın KTMT təlimlərində iştirakından imtina edir. Fransa və Avropa strukturları Ermənistanı dəstəkləyən bəyanatlar verir, hətta aksiyalar da edirlər. Hamısı gözləyirlər ki, Rusiya yumruqla masaya vurub bəyan etsin ki, sərt reaksiya verəcək ki, bu qədər, Ermənistan artıq müttəfiq deyil. Paşinyan isə sadəcə olaraq Moskvanı belə reaksiyaya sövq etmək istəyir ki, o, özünü incimiş kimi göstərsin və bəyanatlardan hərəkətə keçsin-məsələn, KTMT-ni tərk etsin.

Məncə, bu planı ötən ilin payızında Paşinyan və Makron hazırlayıb. Amerika məntiqi isə fransızlarla üst-üstə düşür. İndi İrəvanın məqsədi bəyanatlar ilə Rusiyanın sərt reaksiyasına səbəb olmaqdır. Qərb Ermənistandan Rusiyaya zərər vermək üçün istifadə etmək istəyir. Bu cəbhələrdən biridir.

Ermənistan xalqı Rusiya Federasiyasına düşmən münasibət bəsləmir. Əhali arasında yüksək səviyyədə anlayış var ki, Ermənistanın Rusiyadan qopması respublikaya ağır zərbə vura bilər. Əhali Paşinyanın onlara təklif etdiyi böyük dönüşdən qorxur. Ona görə də Ermənistanın baş nazirinin Ermənistandakı əhval-ruhiyyəni dəyişməsi vacibdir. O, yıxılacağından qorxur. Ona görə də hər gün anti-Rusiya bəyanatları ilə təxribat törədir.

Rusiya inteqrasiya strukturlarını- Aİİ və KTMT-ni yaradıb. Amerikalılar isə indi Paşinyandan istifadə edərək bu inteqrasiya strukturlarına zərbə vurmağa çalışırlar.

Düşünmürəm ki, Rusiya rəhbərliyi Ermənistanı tənqid etməyə məcburdur. Bu gün Ermənistanın Rusiyadan çıxması mövzusu obyektiv olaraq mövcuddur və çox aktualdır.

***- Əgər Ermənistan KTMT-dən çıxsa, hakimiyyət ölkənin təhlükəsizliyinin təmin olunmasını texniki cəhətdən necə təsəvvür edir?***

- Öz ərazisində Fransa və Amerika bazalarının açılmasını hesablayır. Amerikalılar hərbi baza açmaqdan sadəcə məmnun olacaqlar, çünki o, eyni zamanda təkcə Rusiyaya, qismən Azərbaycana qarşı deyil, həm də İrana qarşı hərbi baza olacaq.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
18 noyabr
2023-cü il


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!




*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# DİQQƏT: Endirim, yoxsa fırıldaqçılıq?

*Mütəxəssis bir sıra faktları açıqladı*






“Ərzaq malları sektoruna baxsaq, burada yarama müddəti yarıdan keçmiş malların satılması məsələsi artıq təchizatçı tərəfindən təklif oluna bilir. Lakin əksər hallarda market sahibləri özləri bu işləri görürlər”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Onun sözlərinə görə, marketlərin endirim kampaniyasının əsas məqsədi istehlakçını qapıdan içəri salmaqdır: ”Birinci məqsəd budur. İkinci məqsəd əlbəttə içəri salandan sonra onlara hansısa malı satmaqdır. Endirimə qoyulmuş ərzaq və sənaye mallarından ikisində də ayrı-ayrı vəziyyətlər mövcuddur. İstehlakçı mal seçir, kassaya gəlib yaxınlaşanda deyirlər ki, bu mal endirimdə deyil. Endirimə qoyulmuş malın yanına endirim olmayan mal da qoyurlar. Vətəndaş bəzən o maldan götürür, deyirlər xeyr buna endirim yoxdur və s. Endirimdə alınmış malın istehlakçının tələbatını ödəmədiyi halda qaytarmaq-dəyişmək istəsə deyirlər ki, sən bunu endirimdə almısan. Bu kimi məsələlər var.

Endirim məsələləri əsasən market sahibləri tərəfindən həyata keçirilir. Ümumiyyətlə, market sahibləri təchizatçıların başına min bir oyun açırlar. Təchizatçılar market şəbəkələrinə girmək üçün külli miqdarda pul ödəyirlər. Nağd şəkildə özü də bəri başdan ödəyirlər. Ondan sonra market sahibləri təchizatçılarla necə istəsələr elə də davranırlar ki, onlar da market şəbəkəsindən pul verdikləri üçün çıxa bilmirlər. Çox təəssüflər olsun ki, bu barədə heç bir qanun-qayda yoxdur və üstəlik satılan malın pulunun qaytarılması barədə ölkədə böyük problemlər yaşanır. Sadəcə olaraq bu məsələlərdə təchizatçılar səsini çıxara bilmir. Market sahibləri özləri təchizatçıları məcbur edir ki, endirim edirəm, marketinə çox adam gəlsin və s. Bu kimi hallar çox geniş yayılmış bir məsələdir. Əlbəttə burada bir nömrəli məsələ marketə insanları daxil edib orada çoxlu satış əldə etməkdir”.

Eyyub Hüseynov sözlərinə belə davam edib: ”Nazirlər Kabinetinin 94 saylı qərarına görə, malların üzərində maddi məsul şəxsin imzası olmaqla qiymət sənədləri olmalıdır. Belə bir sənədin olmamasına görə qarşıda müəyyən cərimələr verilir. Bəli, AİB-ə gələn şikayətlər arasında malın üzərinə endirim sözü yazılmaqla əhalinin aldadılması məsələsinə də toxunulur. Yəni, malın əvvəlki qiyməti yerində qalır və onun üzərinə bir kağız qoyub endirim yazırlar. Bir sözlə, elə əvvəlki qiyməti yazır və guya ki istehlakçıya bir jest edirlər. Əslində isə bu istehlakçının aldadılmasıdır. Ona görə də istehlakçı öz hüquqlarını və malın əvvəlki qiyməti barədə sənədləri tələb edə bilər. Satıcı isə onu göstərməyə borcludur. Çox təəssüf ki istehlakçının bu kimi tələblərinə adekvat əməl olunmur. Qiymət siyasətinə nəzarət etməli olan dövlət orqanı olan İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti isə demək olar ki, heç bir iş görmür. Süni qiymət artımı və istehlakçıların qiymətdə aldadılması məsələsi daim davam edir. Xüsusən kartla ödəyəndə bu daha çox özünü büruzə verir.

AİB tətqiqatı göstərir ki, bir ildə Azərbaycan istehlakçıları hətta almadıqları mal üçün yeni, xüsusən kartla ödənişdə 500 milyon manat pul ödəyirlər. Ona görə də istehlakçılar kassa çekini alanda diqqətlə kassa çekinə, endirimin nəzərə alınıb-alınmadığına, aldıqları malın siyahısına baxsınlar və s. Bəzən də insanın almadığı malı kassa çekinə vururlar. Bu kimi hallar istehlakçı hüquqlarının pozulması kimi qiymətləndirilir.

İnsanlar telefonlarına gələn ismarıclara baxmır, kartla ödəniş edirlər və almadığı malı ora yazırlar. Yəni, ona görə də biz məsləhət görürük ki, dükandan çıxmadan telefonunuzun ismarıc bölməsinə, kassa çekinə, mallara baxın”.

***Ayşən Vəli***

# İstilik təchizatındakı problemlər niyə öz həllini tapmır?

MÜNASİBƏT



**“”Azəristiliktəchizat” ASC kimin mənzilində istilik olub-olmadığını bilmir. Sovet dövründən qalma siyahılarla evlərə ödəniş üçün qəbzlər göndərir. Bu da bir problemdir. Çünki bu evlərə gəlib istiliyin olub-olmadığını yoxlayıb invertalizasiya edən olmayıb”. Bu sözləri SİA-ya açıqlamasında Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov deyib.**

Onun sözlərinə görə, digər bir problem evlərdə istilik tələbatının nə qədər olması ilə bağlıdır: ”Evin kvadratmetrinə uyğun qiymət tarifi müəyyən olunub. Amma bu tarifi kimin müəyyən etdiyi də bəlli deyil. Hesab edirəm ki, istilik təchizatındakı problemlər mütləq kommunal islahatlar çərçivəsində öz həllini tapmalıdır”.

S.Məmmədov mavi qaz, elektrik enerjisi və ya suyun ödənişi müəyyən həcmə uyğun olaraq sayğacla həyata keçirilir: ”İstilik də bu cür olmalıdır. Kim istilikdən istifadə edirsə, ona uyğun tarif müəyyən olunmalıdır. Bunu həyata keçirmədən bu sahədə irəliləyişin olacağına ümid etmirəm”.

***Ləman Sərraf***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
**Tiraj: 4000**




# XƏBƏRDARLIQ: Bu taksi sürücülərinə buraxılış kartı verilməyəcək

**Azərbaycanda hazırlıq keçməyən taksi sürücüləri buraxılış kartı ala bilməyəcəklər. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi açıqlama yayıb. Bildirilir ki, Nazirlər Kabinetinin 4 sentyabr 2023-cü il tarixli Sərəncamı ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə digər aidiyyəti dövlət orqanları ilə razılaşdırmaqla taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələbləri, həmçinin sürücü barədə məlumatların siyahısı ilə bağlı təklifləri 4 ay müddətində Nazirlər Kabinetinə təqdim etmək tapşırılıb.**

Təsdiq olunacaq texniki göstəricilərə, daxili və xarici tərtibata dair tələblərə cavab verən taksi nəqliyyat vasitələrinə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) tərəfindən müvafiq icazə veriləcək.